Azərbaycan Respublikası Baş nazirinin 07/654 nömrəli 03 noyabr 2022-ci il tarixli göstərişinə dair

# Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 2022-ci il üzrə Hesabatı

Yanvar, 2023-cü il

# Mündəricat

**1.Giriş** ..... 2
**2. Xarici ticarət dövriyyəsi** ..... 2
2.1. İdxal - ixrac əməliyyatları ..... 2
2.2. Sektorlar üzrə idxal - ixrac əməliyyatları ..... 3
**3. Büdcə daxilolmaları** ..... 4
3.1. Gömrük rüsumları ..... 4
3.2. Əlavə dəyər vergisi ..... 5
3.3. Aksizlər ..... 5
3.4. Yol vergiləri və icazə blankları ..... 6
**4. Gömrük azadolmaları və güzəştlər** ..... 6
**5. Gömrük dəyərinə nəzarət** ..... 7
**6. Gömrük borcunun hesablanması və alınması** ..... 7
**7. Valyuta və ixraca nəzarət** ..... 8
**8. Gömrük tariflərinin tənzimlənməsi** ..... 9
**9. Gömrük risklərinin idarəolunması və audit** ..... 10
9.1. Risklərin idarəolunması ..... 10
9.2. Gömrük auditi ..... 11
9.3. Mobil gömrük və mallara elektron nəzarət ..... 12
**10.Ticarətin asanlaşdırılması tədbirləri** ..... 13
10.1. Ticarətin Asanlaşdırılması Mərkəzləri ..... 13
10.2. Tranzit imkanları və daşımalar ..... 14
10.3. “Yaşıl dəhliz” buraxılış sistemi ..... 15
**11. Rəqəmsal gömrük layihələri** ..... 17
**12. Gömrük infrastrukturunun yenilənməsi** ..... 19
12.1. Gömrük sərhəd keçidinin sürətləndirilməsi ..... 19
12.2. Gömrük orqanlarının maddi-texniki bazasının möhkəmləndirilməsi ..... 20
**13. Gömrük işində hüquqpozmalara qarşı mübarizə** ..... 21
13.1. İstintaq-təhqiqat tədbirləri ..... 21
13.2. Əməliyyat tədbirləri ..... 24
13.3. Hüquqpozmalarla mübarizədə beynəlxalq əməkdaşlıq tədbirləri ..... 25
**14. Beynəlxalq əməkdaşlıq** ..... 28
**15. Gömrük inzibatçılığı** ..... 31
15.1. Qanunvericiliyin təkmilləşdirilməsi ..... 31
15.2. İnsan resurslarının idarə edilməsi ..... 33
15.3. Dövlət Gömrük Komitəsinin Akademiyası ..... 36
15.4. Tibbi xidmət ..... 39
**16. İctimaiyyətlə əlaqələr** ..... 40
16.1. Çağrı mərkəzi ..... 41
16.2. “Könüllü gömrükçü” hərəkatı ..... 43

# 1.Giriş

Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən sosial-iqtisadi inkişaf konsepsiyası ölkəmizin biznes və investisiya mühitini daha da yaxşılaşdırmış, iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun təşviqi, sahibkarlığın genişmiqyaslı islahatlarla dəstəklənməsi ölkənin iqtisadi potensialının güclənməsinə dayanıqlı zəmin yaratmışdır.

İkinci Qarabağ müharibəsi zəfərindən yaranan böyük iqtisadi imkanlar, müasir dövrdə baş verən qlobal dəyişikliklər zəminində Dövlət Gömrük Komitəsi büdcə daxilolmalarının dayanıqlığının təmin edilməsini, elektron gömrük xidmətlərinin sayının və çeşidinin genişləndirilməsini, gömrük inzibatçılığının risk əsaslı həllərlə rəqəmsallaşdırılmasını, vətəndaş və işçi məmnunluğunun təmin olunmasını, habelə qanunvericiliklə gömrük orqanlarına həvalə edilmiş milli və iqtisadi təhlükəsizlik tədbirlərinin icrasını 2022-ci ildə strateji hədəf olaraq müəyyən etmişdir.

Hesabat ilində Dövlət Gömrük Komitəsi qarşıya qoyulmuş vəzifələri və tapşırıqları yüksək səviyyədə icra etmək məqsədilə gömrük inzibatçılığının normativ-hüquqi bazasının təkmilləşdirilməsi, idxal-ixrac əməliyyatlarının rəsmiləşdirilməsinin sadələşdirilməsi, ticarətin asanlaşdırılması, xarici ticarətin və gömrük sərhədindən mal dövriyyəsinin, o cümlədən tranzit yük daşımalarının artırılması, çevik idarəetmə sisteminin tətbiqi, sahibkarlığın inkişafı və şəffaf biznes mühitinin formalaşması istiqamətində müvafiq tədbirlər həyata keçirmiş, öz büdcə öhdəliklərini uğurla yerinə yetirmişdir.

# 2. Xarici ticarət dövriyyəsi

## 2.1. İdxal - ixrac əməliyyatları

Son illərdə xarici ticarət dövriyyəsi və saldosu artmışdır. Ticarət saldosunun kəskin artımı ixracın hesabına olmuşdur.

| Xarici Ticarət (min ABŞ dolları ilə) | 2021 | 2022 | 2021/2020 | 2022/2021 |
|---|---|---|---|---|
| **İXRAC** | 22 205 662 | 38 090 956 | 61.7 % | 71.5 % |
| **İDXAL** | 11 703 223 | 14 541 210 | 9.0 % | 24.2 % |
| **SALDO** | 10 502 439 | 23 549 746 | 250.2% | 124.2 % |
| **TİCARƏT DÖVRİYYƏSİ** | 33 908 885 | 52 632 166 | 38.6 % | 55.2 % |

Xarici ticarətin tərəfdaş ölkə qrupları ilə dinamikası aşağıdakı kimi olmuşdur.

| İXRAC (min ABŞ dolları ilə) | 2021 | 2022 | Qrupda payı, % | 2021/2020 | 2022/2021 |
|---|---|---|---|---|---|
| **CƏMİ:** | **22 205 662** | **38 090 956** | **100.0 %** | **61.6 %** | **71.6 %** |
| MDB ölkələri | 1 790 015 | 1 635 627 | 3.7 % | 37.1 % | -8.6 % |
| Aİ ölkələri | 13 064 408 | 25 009 822 | 67.4 % | 96.6 % | 91.4 % |
| Digər ölkələr | 7 351 239 | 11 445 507 | 28.9 % | 27.2 % | 55.7 % |

| İDXAL (min ABŞ dolları ilə) | 2021 | 2022 | Qrupda payı, % | 2021/2020 | 2022/2021 |
|---|---|---|---|---|---|
| **CƏMİ:** | **11 703 223** | **14 541 210** | **100.0 %** | **9.0%** | **24.2%** |
| MDB ölkələri | 2 926 710 | 4 413 773 | 30.4 % | 4.5% | 50.8% |
| Aİ ölkələri | 2 136 866 | 2 334 657 | 16.1 % | - 4.4% | 9.3% |
| Digər ölkələr | 6 639 647 | 7 792 780 | 53.5 % | 16.6% | 17.4% |

## 2.2. Sektorlar üzrə idxal - ixrac əməliyyatları

(min ABŞ dolları ilə)

| № | Göstəricilər | 2021 | 2022 | 2021-ci il ilə müqayisə | | İxracda x/ç, %-lə | |
|---|---|---|---|---|---|---|---|
| | | | | məbləğlə | faizlə | 2021 | 2022 |
| **1.** | **İdxal** | **11 703 222,6** | **14 541 210,3** | 2 837 987,7 | 24,2 | | |
| **2.** | **İxrac** | **22 205 661,5** | **38 090 956,1** | 15 885 294,6 | 71,5 | 100,0 | 100,0 |
| | o cümlədən: | | | | | | |
| 2.1. | Neft-qaz sektoru üzrə | 19 493 262,6 | 35 098 956,5 | 15 605 693,9 | 80,1 | 87,8 | 92,1 |
| 2.2. | Qeyri neft-qaz sektoru üzrə | 2 712 398,9 | 2 991 999,7 | 279 600,7 | 10,3 | 12,2 | 7,9 |
| **3.** | **Dövriyyə** | **33 908 884,2** | **52 632 166,4** | **18 723 264,4** | **55,2** | | |
| **4.** | **Saldo** | **10 502 438,9** | **23 549 745,8** | **13 047 324,8** | **124,2** | | |






## 3. Büdcə daxilolmaları

“Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında” Qanununa əsasən 2022-ci il ərzində Dövlət Gömrük Komitəsi üçün 4 milyard 605 milyon manat büdcə öhdəliyi Komitənin strukturuna daxil olan ərazi və ixtisaslaşdırılmış gömrük idarələri arasında bölüşdürülmüş və aylar üzrə yerinə yetirilməsinə mütəmadi olaraq nəzarət edilmişdir (***qeyd:*** *2022-ci il üzrə büdcə daxilolmalarına dair qeyd olunan məlumatlar ilkin məlumatlardır).*

*min manatla*

| İl | Proqnoz | Faktiki | Fərq | |
|---|---|---|---|---|
| | | | min manatla | % |
| **2022** | 4 605 000,0 | 5 653 829,4 | 1 048 829,4 | 122,8 |
| **2021** | 3 900 000,0 | 4 342 969,2 | 442 969,2 | 111,4 |







### 3.1. Gömrük rüsumları

*min manatla*

| İl | Proqnoz | Faktiki | Fərq | |
|---|---|---|---|---|
| | | | min manatla | % |
| **2022** | 1 300 000,0 | 1 419 651,4 | 119 651,4 | **109,2** |
| **2021** | 950 000,0 | 1 205 507,9 | 255 507,9 | **126,9** |






### 3.2. Əlavə dəyər vergisi

*min manatla*

| İl | Proqnoz | Faktiki | Fərq | |
|---|---|---|---|---|
| | | | min manatla | % |
| **2022** | 3 085 000,0 | 4 003 096,6 | 918 096,6 | **129,8** |
| **2021** | 2 740 000,0 | 2 930 722,9 | 190 722,9 | **107,0** |







### 3.3. Aksizlər

*min manatla*

| İl | Proqnoz | Faktiki | Fərq | |
|---|---|---|---|---|
| | | | min manatla | % |
| 2022 | 170 000,0 | 168 782,2 | -1 217,8 | **99,3** |
| 2021 | 170 000,0 | 163 115,8 | -6 884,2 | **96,0** |







Hesabat dövründə gömrük orqanları tərəfindən dövlət büdcəsinə köçürülmüş vəsaitlər haqqında Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə üzləşmə aktları tərtib edilərək təsdiqlənmiş, büdcə proqnozunun icrası barədə Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə, Dövlət Statistika Komitəsinə və Hesablama Palatasına mütəmadi olaraq məlumatlar verilmişdir.

### 3.4. Yol vergiləri və icazə blankları

2022-ci il ərzində Azərbaycan Respublikasının Gömrük Məcəlləsinin 8.0.7-ci yarımbəndinə və Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 15-ci fəslinə müvafiq olaraq xarici dövlətlərə məxsus avtonəqliyyat vasitələrindən Azərbaycan Respublikasının ərazisindən istifadəyə görə yol vergisinin düzgün hesablanmasına və alınmasına nəzarət edilmişdir. “Azərbaycan Respublikası dövlət sərhədinin buraxılış məntəqələrindən keçirilən malların və nəqliyyat vasitələrinin yoxlanılmasında “bir pəncərə” prinsipinin tətbiqi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 11 noyabr tarixli 12 nömrəli Fərmanının tətbiqi ilə bağlı beynəlxalq avtomobil daşımalarını yerinə yetirən nəqliyyat vasitələrinə sərhəddə "İcazə" blanklarının verilməsi və buna görə "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məbləğlərdə dövlət rüsumunun tutulması təmin edilmişdir.

**Yol vergisi üzrə**

| Hesabat dövrü | Proqnoz | Faktiki | Yerinə yetirilmə | |
|---|---|---|---|---|
| | | | min manatla | %-lə |
| **2022** | 50,000.0 | 62,299.3 | 12,299.3 | 124.6 |
| **2021** | 40,000.0 | 43,622.6 | 3,622.6 | 109.1 |

**Dövlət rüsumu üzrə**

| Hesabat dövrü | Faktiki |
|---|---|
| **2022** | 23,458.0 |
| **2021** | 17,528.5 |

***Qeyd:*** *2022-ci il üzrə qeyd olunan məlumatlar ilkin məlumatlardır.*

## 4. Gömrük azadolmaları və güzəştlər

Hesabat dövründə mövcud qanunvericilikdə nəzərdə tutulmuş güzəşt və azadolmaların düzgün tətbiqinə mütəmadi nəzarət təmin edilmişdir. 2022-ci il ərzində idxal əməliyyatlarının tərkibində qeydə alınmış azadolma həcmi aşağıdakı cədvəldə öz əksini tapmışdır:

| Hesabat dövrü | 2021 | | 2022 | |
|---|---|---|---|---|
| **İdxalın həcmi** | **11,703,222.64** | | **14,541,210.31** | |
| ***Vergi və rüsumdan azad edilən idxalın həcmi*** | | | | |
| ***İdxal gömrük rüsumu*** | **6,439,859.06** | **55.03%** | **8,248,295.43** | **56.72%** |
| ***ƏDV*** | **2,410,271.84** | **20.59%** | **2,796,047.01** | **19.23%** |
| ***Vergi və rüsuma cəlb edilən idxalın həcmi*** | | | | |
| ***İdxal gömrük rüsumu*** | **5,263,363.58** | **44.97%** | **6,292,914.88** | **43.28%** |
| ***ƏDV*** | **9,292,950.80** | **79.41%** | **11,745,163.30** | **80.77%** |

2022-ci il ərzində 139 hasilatın pay bölgüsü sazişlərinə və Azərbaycan Respublikasının idxal və ixrac rüsumları və vergiləri haqqında protokola əsasən gömrük ödənişlərindən azadolma hüququ verən sertifikat verilmişdir. Bununla yanaşı, gömrük ödənişlərindən azadolmalara nəzarət tədbirləri nəticəsində ödənilməmiş 2,256,847.00 manat gömrük ödənişlərinin dövlət büdcəsinə ödənilməsi həyata keçirilmişdir.

Gömrük ödənişləri üzrə güzəşt və azadolmalarla bağlı təhlillərin aparılmasına dair Metodika təsdiq edilmişdir (1000/282 nömrəli,13.12.2022).

## 5. Gömrük dəyərinə nəzarət

Gömrük orqanları tərəfindən tətbiq olunan gömrük dəyərləndirilməsi sisteminin təkmilləşdirilməsi məqsədilə Komitənin Vahid Avtomatlaşdırılmış İdarəetmə Sisteminin (VAİS) tərkibində yaradılmış vahid qiymət-məlumat bazasında idxal əməliyyatları üzrə qeydə alınmış malların XİFMN koduna və ölçü vahidinə görə yerləşdirilmiş minimal və maksimal statistik dəyərləri haqqında məlumatlar üzrə mütəmadi təhlillər aparılmışdır. Qiymət-məlumat bazasının yaradılması nəticəsində gömrük orqanı əməkdaşları rəsmiləşdirmə prosesində düzgün bəyan olunmamış və ya gömrük dəyəri aşağı bəyan olunması ehtimal edilən mallar üzrə əməliyyatları daha səmərəli müəyyən edə bilmişlər. Hesabat dövründə Komitənin müvafiq struktur bölməsi tərəfindən qiymət-məlumat bazasına daimi nəzarət təmin olunmaqla, idxal olunan malların gömrük dəyərinin aşağı salınması nəticəsində gömrük ödənişlərinin düzgün hesablanmayaraq dövlət büdcəsinə az məbləğdə köçürülməsi hallarının qarşısının alınması istiqamətində daimi olaraq iş aparılmışdır. Belə ki, Komitənin müvafiq struktur bölməsi tərəfindən 2022-ci il ərzində aparılmış gömrük baxışı nəticəsində malların statistik dəyərinin **32,692,616.00 ABŞ dolları** azaldılmasının qarşısı alınmış və nəticədə **18,201,281.00 manat** gömrük ödənişlərinin dövlət büdcəsinə ödənilməsi təmin edilmişdir.

## 6. Gömrük borcunun hesablanması və alınması

2022-ci il ərzində Azərbaycan Respublikası Nazirlər Kabinetinin 3 oktyabr 2013-cü il tarixli 286 saylı “Təminatdan istifadə etməklə gömrük borcunun ödənilməsinin təmin edilməsi Qaydaları”nın və Azərbaycan Respublikasının Gömrük Məcəlləsinin 250-ci maddəsinin tələblərinə uyğun olaraq yaranmış və yarana biləcək gömrük borcuna görə təminat vasitələrinin alınmasına nəzarət edilmişdir.

01 iyul 2022-ci il tarixdə müvəqqəti saxlanc xüsusi gömrük proseduru altında qalma müddəti başa çatmış mallara görə şərti hesablanmış gömrük ödənişləri cəmi **125,199,546.46** manat təşkil etmişdir.

Müvəqqəti saxlanc xüsusi gömrük proseduru altında qalma müddəti başa çatmış mallara görə yaranmış gömrük borcunun büdcəyə köçürülməsinin təmin edilməsi üçün 2022-ci ilin ikinci yarısında xarici iqtisadi fəaliyyət iştirakçılarına bildirişlərin göndərilməsi, onların müvəkkil bank hesablarına Komitə tərəfindən alınmalı və dondurulmalı sərəncamların qoyulması, habelə hüquqi müstəvidə atılmış bir sıra addımların nəticəsində 30 dekabr 2022-ci il tarixə müvəqqəti saxlanc xüsusi gömrük proseduru altında qalma müddəti başa çatmış mallara görə şərti hesablanmış gömrük borcları **86,713,108.16** manat azalaraq **38,486,438.30** manat olmuşdur. Qeyd olunan bu qalıq məbləğinin əsas hissəsinin (61.7%) “Azərenerji” Açıq Səhmdar Cəmiyyəti tərəfindən ölkə ərazisinə gətirilən yüklərə, qalan hissənin (38.2%) digər dövlət qurumlarına və özəl müəssisələrə aid olduğu təsbit olunmuşdur.

## 7. Valyuta və ixraca nəzarət

Konsiqnasiya yolu ilə ölkədən aparılan malların müqabilində əldə olunmuş xarici valyutanın 180 gün müddətində gətirilməsi ölkənin valyuta ehtiyatlarının artırılmasında və tədiyyə balansının tərtibində mühüm rola malikdir. Bu baxımdan Komitənin “Konsiqnasiya yolu ilə həyata keçirilən ixrac əməliyyatlarının monitorinqi ilə bağlı bəzi məsələlər barədə” sərəncamının (1000/205 nömrəli, 07.09.2022) icrası üzrə yaradılan İşçi qrup tərəfindən xarici iqtisadi fəaliyyət iştirakçılarının ölkədən ixrac etdikləri malların müqabilində əldə edilmiş vəsaitlərin 2017-2022-ci illəri əhatə edən dövr ərzində müvəkkil bank hesablarına köçürülməsinin vəziyyətinin monitorinqi aparılmışdır.

Aparılmış monitorinqin nəticələrində müəyyən edilmişdir ki, Azərbaycan Respublikasının Prezidenti tərəfindən 24 iyun 1997-ci il tarixli 609 saylı Fərmanla təsdiqlənmiş “Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi” haqqında Qaydaların 12.2-ci bəndinə uyğun olaraq 180 gün müddəti ötmüş ixrac əməliyyatına görə ölkəyə xarici valyuta vəsaitlərinin gətirilməsi şəxslər tərəfindən vaxtında təmin edilməmişdir. Belə ki, 01 sentyabr 2022-ci il tarixinə konsiqnasiya yolu ilə hüquqi və fiziki şəxslər tərəfindən ixrac edilən malların gömrük dəyəri müqabilində 11 milyard 130 milyon ABŞ dolları, o cümlədən 1388 sayda hüquqi şəxslər tərəfindən 10 milyard 847 milyon ABŞ dolları, 601 fiziki şəxs tərəfindən 282 milyon 260 min ABŞ dolları məbləğində vəsaitin müvəkkil bankda olan hesabına köçürülməsi təmin edilməmiş və ya müvəkkil bank tərəfindən elektron gömrük portalına bəyannamələr vaxtında işlənilməmiş və ya gömrük bəyannamələrində qarşılıqlı hesablaşmanın tətbiqi üsulu səhv qeyd edilmişdir.

Hüquqi və fiziki şəxslərin konsiqnasiya yolu ilə ölkədən apardıqları malların gömrük dəyəri müqabilində xarici valyuta vəsaitlərinin gətirilməsi ilə əlaqədar Komitənin ərazi və ixtisaslaşdırılmış gömrük idarələri tərəfindən hüquqi addımlar atılmış, aparılmış araşdırmanın nəticəsindən asılı olaraq Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 483-cü maddəsi, Cinayət Məcəlləsinin 208-ci maddəsinə əsaslanaraq toplanmış materiallar aidiyyəti üzrə məhkəmə orqanlarına və ya Azərbaycan Respublikasının Baş Prokurorluğuna təqdim edilmiş, habelə gömrük orqanları tərəfindən həmin şəxslər barəsində inzibati tənbeh tədbirləri tətbiq edilmişdir. 2017-2022-ci illəri əhatə edən dövr üzrə Komitənin ərazi və ixtisaslaşdırılmış gömrük idarələrində aparılan araşdırmanın nəticəsi olaraq 204 sayda iş məhkəmə orqanlarına, qaytarılmayan 1 milyard 81 milyon 194 min ABŞ dolları, 1 milyon 214 min 575 Avro, 620 min dirhəm və 11 milyon 66 min 122 rubl məbləğində və ya 879 sayda iş Azərbaycan Respublikasının Baş Prokurorluğuna göndərilmişdir. Ötən dövr ərzində gömrük orqanları tərəfindən 417 sayda işə baxılmış və 3,247,449.00 manat məbləğində cərimə tətbiq edilmişdir.

Bununla yanaşı, araşdırma zamanı müəyyən edilmişdir ki, bir sıra hallarda ixrac əməliyyatlarını həyata keçirən şəxslər tərəfindən gömrük bəyannaməsində “Hasilatın Pay Bölgüsü”ndə iştirak edən xarici podratçıların ölkə ərazisindən ixrac etdikləri neft, qaz və qiymətli metal əməliyyatları, təkrar ixrac, daxildə emal, aksizli malların idxalı ilə əlaqədar ölkədən ixrac olunan aksiz markalarının ixrac əməliyyatı kodları düzgün qeyd olunmayaraq konsiqnasiya kodu altında (003) bəyan edilmiş və ya ixracatçıların müvəkkil banklarda olan hesablaşma hesablarına daxil olmuş valyuta vəsaitləri barədə məlumatların banklar tərəfindən müvafiq qeydləri aparılmamış, nəticə etibarilə statistik göstəricilərin süni şəkildə artmasına səbəb olmuşdur.

Konsiqnasiya yolu ilə həyata keçirilən ixrac əməliyyatları sahəsində mövcud vəziyyətin müzakirə edilməsi məqsədilə 2022-ci il 14 oktyabr tarixdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi, Baş Prokurorluğu və Mərkəzi Bankın, 18 oktyabr tarixdə isə Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin rəhbər şəxsləri ilə Dövlət Gömrük Komitəsi rəhbərliyinin görüşləri keçirilmişdir. Görüşlərdə konsiqnasiya əməliyyatlarını tənzimləyən mövcud qanunvericilik normaları müzakirə edilmiş, aidiyyəti qurumlar tərəfindən mövzu ilə bağlı bir sıra təkliflər irəli sürülmüşdür.

Konsiqnasiya yolu ilə ixrac olunmuş malların müqabilində qaytarılmayan valyuta vəsaitlərinin ölkəyə gətirilməsinin təmin edilməsi, müvəkkil bankların gömrük portalına bəyannamələrin işlənilməsi məqsədilə ixracatçılarla əlaqə saxlanılmış, onlara bildiriş və xəbərdarlıq məktubları göndərilmiş, sahibkarların qarşılaşdıqları çətinliklərin, xarici valyuta vəsaitlərinin qaytarılması zamanı üzləşdikləri problemlərin həlli məqsədilə Dövlət Gömrük Komitəsinin təşəbbüsü və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin (AZPROMO) təşkilatçılığı ilə 7 oktyabr tarixdə onlayn qaydada, 21 oktyabr tarixdə Quba-Xaçmaz Regional İnkişaf Mərkəzində (KOB İnkişafı Mərkəzində) və 2 dekabr tarixdə Göyçay rayonu Heydər Əliyev Mərkəzində sahibkarlarla görüşlər keçirilmişdir. Görüşdə ixracatçılara göstərilən dəstək tədbirləri, konsiqnasiya yolu ilə ixrac olunmuş məhsulların dəyəri müqabilində xarici valyutanın ölkəyə gətirilməsi, mövcud qanunvericiliyin tələblərinə əməl edilməsi məsələləri müzakirə edilmiş, məhsulların ixracı zamanı sahibkarların qarşılaşdıqları problemlər, onların həlli yolları ətrafında fikir mübadiləsi aparılmışdır. Biznes subyektlərinin rəhbərlərinə mövcud qanunvericiliyə riayət olunması ciddi tapşırılmışdır. Komitə tərəfindən görülmüş müvafiq tədbirlər nəticəsində, faktiki olaraq ölkəyə qaytarılmayan xarici valyutanın məbləği azalaraq 16 dekabr 2022-ci il tarixinə 1 milyard 719 milyon ABŞ dolları təşkil etmişdir.

İxrac olunmuş malların müqabilində 180 gün ərzində ölkəyə qaytarılmayan xarici valyuta vəsaitlərinin 83 faizi, məbləğ ifadəsində 1 milyard 427 milyon ABŞ dolları kənd təsərrüfatı məhsulları təşkil etməklə, bu vəsaitlərin 79 faizi, məbləğ ifadəsində 1 milyard 122 milyon ABŞ dolları Rusiya Federasiyasına ixrac olunan malların payına düşür.

Monitorinq zamanı müəyyən olunmuşdur ki, ölkəyə qaytarılmayan xarici valyuta vəsaitlərinin 17 faizi , məbləğ ifadəsində 289 milyon ABŞ dolları fiziki şəxslər tərəfindən 21 may 2022-ci il tarixinədək ixrac olunan malların payına düşür.

## 8. Gömrük tariflərinin tənzimlənməsi

“Dövlət Gömrük Komitəsinin 2021-ci il ərzində fəaliyyətinin yekunları və qarşıda duran vəzifələr barədə” Kollegiya Qərarının 5-ci bəndinin icrasının təmin edilməsi məqsədilə preferensial mənşə üzrə xüsusi nəzarət tələb edilən və idxalatçılar tərəfindən gömrük ödənişlərindən yayınma məqsədilə yanlış bəyan edilən alt yarımmövqeləri və yayındırıcı kodları əhatə edən müvafiq risk profilləri hazırlanaraq VAİS-ə daxil edilmişdir. Yaradılmış risk profilləri ilkin mərhələdə 125 alt yarımmövqeni və müvafiq preferensial ölkələri əhatə etmişdir.

2021-ci il üzrə orta sadə və ortaçəkili tarif dərəcələri barədə məlumatlar 2022-ci ildə Komitənin rəsmi internet səhifəsində yerləşdirilmiş və qeyd olunan məlumatların Dünya Bankına ötürülməsi təmin edilmişdir.

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və xarici dövlətlərin Azərbaycan

Respublikasındakı səfirlikləri vasitəsilə malın mənşəyini təsdiq edən sertifikatları imzalamaq səlahiyyəti olan vəzifəli şəxslərin imza və möhür nümunələrinin alınması 2022-ci ildə də davam etdirilmiş və onların yerli gömrük orqanlarına göndərilməsi təmin edilmişdir.

"Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın Xarici ticarət və ticarət tarifləri işçi qrupunun 2022-ci il üçün Fəaliyyət Planı"na dair Dövlət Gömrük Komitəsinin təkliflərinin İqtisadiyyat Nazirliyinə göndərilməsi təmin edilmişdir.

## 9. Gömrük risklərinin idarəolunması və audit

### 9.1. Risklərin idarəolunması

Ümumdünya Gömrük Təşkilatının "Risk Menecment Kompendiumu"nun risk meyarları əsas götürülməklə xüsusi alqoritmlərə əsaslanan "Sərhəd risk modulu"nun tətbiqinə başlanılmışdır. Sərhəd keçidi zamanı qərarvermənin dəstəklənməsi məqsədilə nəqliyyat vasitələrində mövcud olan gizli saxlanc yerlərinin qruplaşdırılaraq siyahı üzrə VAİS-ə inteqrə edilməsi təmin edilmişdir.

Gömrük bəyannamələrinin emalı üçün avtomatlaşdırılmış alətlərdən istifadə etməklə sahəvi risklərin qiymətləndirilməsi üçün (gömrük dəyəri, malların sayı/miqdarı, təhlükəsizlik, malların XİFMN üzrə təsnifatı, tətbiq olunan gömrük prosedurları, imtiyazlar, əqli mülkiyyət) "Gömrük rəsmiləşdirilməsi modulu"nun tətbiqinə başlanılmışdır.

Hesabat dövründə Xarici İqtisadi Fəaliyyətin Mal Nomenklaturası üzrə mal kodları, gömrük dəyərinin düzgün bəyan olunmaması, idxal olunan mallar üzrə çəki fərqləri təhlil edilmiş riskli mal mövqeləri və bir sıra risk meyarları nəzərə alınmaqla 20 risk profili deaktiv edilərək 150 yeni risk profili sistemə əlavə edilmişdir. Risklərin idarə edilməsi sisteminin yenidən qurulmasını tənzimləyən "Gömrük orqanları sistemində risklərin idarə edilməsi sisteminin tətbiqi qaydaları və formaları" layihəsi hazırlanmışdır.

"Yaşıl dəhliz" buraxılış sistemindən daimi istifadə hüququnu əldə etmiş şəxslər tərəfindən qanunvericiliyin tələblərinə əməl edilməsi vəziyyətinin qiymətləndirilməsi məqsədilə mütəmadi monitorinqlər həyata keçirilmiş və pozuntu aşkar edilmiş şəxslər üzrə istifadə hüquqlarının dayandırılmasına dair müvafiq tədbirlər görülmüşdür.

İdxal-ixrac göstəricilərinin daha dərin təhlil edilməsi, nəticələrinin vizuallaşdırılması və normalar üzrə kənarlaşmanın avtomatlaşdırılmış qaydada xəbərdarlıq məlumatlarının alınması məqsədilə "Tableau" proqram təminatının tətbiqi davam etdirilmişdir. Qeyd olunan sistem vasitəsilə XİF iştirakçılarının göstəriciləri, idxal olunan malların dinamikası, ölkələr üzrə məlumatlara dair hesabatların hazırlanması ilə yanaşı, idxal əməliyyatlarının gömrük dəyəri və netto/brutto çəki nisbətlərinin nəqliyyat növündən asılı olaraq "Standart kənarlaşma"nın proqramlaşdırılmış riyazi tətbiqi nəticəsində uyğunsuzluqlar, eynicinsli mallar üzrə gömrük dəyərinin müəyyən edilməsi zamanı ortaya çıxan fərqlər və şirkətlərin ilk idxal əməliyyatları kimi məlumatların avtomatlaşdırılmış qaydada əldə olunması təmin edilmişdir.

Əvvəlki dövrlərdə olduğu kimi 2022-ci il ərzində VAİS-in "Təhlil üçün risk məlumatlarının göndərilməsi" altsistemi vasitəsilə yerli gömrük orqanlarından 269 sorğu, eləcə də Komitə əməkdaşları tərəfindən riskli sahələr üzrə və "UN comtrade" məlumat bazasında olan göstəricilər üzrə müvafiq təhlillər aparılmışdır.

“Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Türkiyə Respublikasının Ticarət Nazirliyi arasında gömrük məsələləri üzrə Birgə Komitənin 4-cü iclasının Protokolu” və “Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Türkiyə Respublikasının Ticarət Nazirliyi arasında 2021-2022-ci illər üzrə gömrük işi sahəsində əməkdaşlığın və qarşılıqlı yardımın səmərəliliyinin yüksəldilməsinə dair Tədbirlər Planı”na müvafiq olaraq “Risklərin idarəolunması və rəsmiləşdirmədən sonra audit” sahələrində Türkiyə təcrübəsinin öyrənilməsi məqsədilə gömrük əməkdaşlarının iştirakı ilə Türkiyə Respublikasının Ticarət Nazirliyinin ekspertləri arasında videoformatda görüşlər keçirilmiş, təcrübə mübadiləsi aparılmış və görüləcək işlər planlaşdırılmışdır.

2022-ci il ərzində “maşın öyrənmə”, “süni intellekt” və risklərin idarəolunması istiqamətində bilik və bacarıqların artırılması məqsədilə gömrük orqanı əməkdaşlarının aşağıda adları çəkilən tədbirlərdə iştirakı təmin edilmişdir:

- Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin əməkdaşları üçün Ümumdünya Gömrük Təşkilatı tərəfindən təşkil edilmiş “Mənşə Qaydaları və Məcburi Qərarlar” üzrə seminarda, Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyinin (KOICA) "Azərbaycan üçün gömrükdə İKT potensialının gücləndirilməsi" layihəsi çərçivəsində keçirilən təlimdə;
- Ümumdünya Gömrük Təşkilatının Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində “Harmonik Sistem” mövzusunda keçirilən ÜGT-nin milli seminarında;
- “Risklərin idarəolunması və rəsmiləşdirmədən sonra audit sahələrində Türkiyə təcrübəsinin öyrənilməsi” barədə Türkiyə Respublikasının Ticarət Nazirliyinin ekspertləri tərəfindən keçirilən onlayn seminarda;
- “Mütəşəkkil Cinayətkarlığa qarşı Təlim və Əməliyyat Tərəfdaşlığı” (“TOPCOP”) layihəsi çərçivəsində “Rəqəmsal miqrant qaçaqmalçılığı: onlayn araşdırmalar” mövzusunda ingilis dilində onlayn formatda keçirilən vebinarda;
- Avropa İttifaqı və Avropa Şurasının (AŞ) “Yaxşı idarəçilik üçün tərəfdaşlıq (PGG II)” birgə proqramının “Azərbaycanda çirkli pulların yuyulmasına qarşı mübarizənin və aktivlərin bərpası sahəsində fəaliyyətin gücləndirilməsi” layihəsi çərçivəsində “Terrorçuluğun maliyyələşdirilməsi ilə bağlı xarici risklər” mövzusunda videokonfrans formatında keçirilən təlimdə;
- “Gömrük kommersiya saxtakarlığının araşdırılması” üzrə hibrid formatda keçirilən tədbirdə.

## 9.2. Gömrük auditi

2022-ci il ərzində Komitənin tabeliyində olan ümumilikdə **5** gömrük orqanının və tabeli qurumunun fəaliyyəti Komitənin müvafiq sərəncamlarına əsasən audit olunmuşdur.

01 yanvar 2022-ci il tarixədək audit aparılmış gömrük orqanları üzrə **9,205,000.00** manat, 2022-ci il ərzində audit aparılmış gömrük orqanları üzrə isə **468,073.00** manat, ümumilikdə **9,673,073.00** gömrük ödənişlərinin ödənilməsi təmin edilmişdir.

Gömrük orqanlarının fəaliyyəti audit olunarkən ilkin uçot sənədlərinin, mühasibat registrlərinin və mühasibat hesabatlarının qorunub saxlanılmasının düzgün formada aparılmaması, Vergi Məcəlləsinin müvafiq maddələrinin tələblərinin pozulması, gömrük vergi və rüsumlarının düzgün hesablanmaması, gömrük prosedurlarının, “Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri”nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər

Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarının, "Gömrük Tarifi" haqqında Azərbaycan Respublikası Qanununun tələblərinə əməl olunmaması, Azərbaycan Respublikası ilə azad ticarət haqqında sazişlər imzalamış ölkələrdən idxal olunaraq rəsmiləşdirilmiş mallara dair sənədlərdə bir neçə halda yüklərə aid "CT-1" formalı mənşə sertifikatında ticarət edən ölkənin göndərən ölkədən fərqli olmasına baxmayaraq Azərbaycan Respublikası Prezidentinin 27 iyul 2010-cu il tarixli 1046 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Müstəqil Dövlətlər Birliyində malların mənşə ölkəsinin təyin edilməsi haqqında" Sazişin tələblərinin pozulması və həmin mallar üçün preferensiyaların tətbiq edilməsi, eləcə də gömrük işini tənzimləyən digər normativ-hüquqi aktların tam və ya düzgün şəkildə tətbiq olunmaması faktları aşkar edilmişdir. Gömrük orqanlarında aparılmış auditin nəticələrinə əsasən yuxarıda qeyd olunan faktlar əsasında nöqsanlara yol vermiş 28 gömrük orqanı əməkdaşı barəsində intizam tənbehi tətbiq olunmuşdur.

Komitənin "Malların buraxılışından sonra gömrük bəyannaməsində düzəlişlərin edilməsi üzrə Texnoloji Sxem"-in tələblərinə uyğun olaraq 2022-ci il ərzində ümumilikdə **13318** müxtəlif məzmunlu düzəlişlər üzrə sifarişlər araşdırılaraq müvafiq rəylər verilmişdir.

"Gömrük xidmətinin Fəaliyyəti Proqramı"nın təsdiq edilməsi barədə sərəncamın (1000/182 nömrəli, 25.08.2022) icrasından irəli gələrək gömrük auditinin aparılması ilə bağlı Gömrük Məcəlləsində dəyişikliklərə dair layihə hazırlanmışdır.

### 9.3. Mobil gömrük və mallara elektron nəzarət

Mobil gömrük şöbələrinin istifadəsində olan mexaniki - elektron kilid (GPS)-lərin istismar vəziyyəti və rüblər üzrə sayılaraq yoxlanması 2022-ci il ərzində təmin edilmişdir.

"Benish GPS Azerbaijan" MMC ilə bağlanmış müqaviləyə uyğun olaraq alınan və uzun müddət istifadə olunan GPS qurğularının köhnəlməyə məruz qaldığını və müasir dövrün tələblərinə cavab vermədiyini nəzərə alaraq 22 fevral 2022-ci ildə "A+A Security" şirkəti ilə yeni müqavilə bağlanmışdır. Həmin müqaviləyə uyğun olaraq 3000 ədəd yeni Jointech JT709A markalı elektron qıfıllar alınaraq mobil gömrük şöbələrinin istifadəsinə verilmişdir. Nəticədə nəqliyyat vasitələrinin GPS vasitəsilə elektron xəritə üzərindən real vaxt rejimində izlənməsi prosesinin səmərəliliyini əhəmiyyətli dərəcədə artırmışdır.

2022-ci il ərzində Hədəf mərkəzində Mal və nəqliyyat vasitələrinə elektron nəzarət şöbəsi tərəfindən bütün yük nəqliyyat vasitələrinin trayektoriya üzrə hərəkətləri ilə bağlı (marşrutdan çıxma, dayanma, yubanma və s.) məlumatlar fasiləsiz olaraq araşdırılmış və təxirəsalınmaz tədbirlər görülmüşdür. Belə ki, təkcə marşrutdan çıxma ilə bağlı hesabat dövründə 6427 fakt qeydə alınmışdır. Həmin faktlara əsasən 580 nəqliyyat vasitəsinin marşrutdan çıxması üçün əsaslı səbəb olmadığı mobil şöbələr tərəfindən fiksə edilmiş və müvafiq gömrük orqanının qərarına uyğun olaraq onlar inzibati qaydada cərimə olunmuşdur.

Hesabat dövründə Hədəf mərkəzində Mal və nəqliyyat vasitələrinə elektron nəzarət şöbəsi tərəfindən GPS quraşdırılmış nəqliyyat vasitələrinin müxtəlif ərazilərdə dayanma durma səbəbləri araşdırılarkən 5670 nəqliyyat vasitəsinin nasazlıq səbəbindən, o cümlədən 76 nəqliyyat vasitəsinin qəza nəticəsində dayandıqları aşkar olunmuş və nəqliyyat vasitələri həmin ərazidə xidmət aparan mobil gömrük əməkdaşları tərəfindən nəzarətə götürülmüşdür.

2022-ci il ərzində Hədəf mərkəzinə mobil şöbələr və digər istiqamətlərdən yük nəqliyyat vasitələrinin müşayiəti ilə bağlı 43000-dən artıq zəng daxil olmuş, Mal və nəqliyyat vasitələrinə elektron nəzarət şöbəsinə bu məqsədlərlə 53000-dən artıq zəng daxil olmuşdur. Bundan başqa yük nəqliyyat vasitəsi sürücülərinin iş vaxtı və ondan kənar vaxtlarda fasiləsiz və operativ olaraq

əlaqə saxlamaları üçün Hədəf mərkəzində olan mobil nömrələrə hesabat dövründə 3115 zəng daxil olmuşdur.

Mobil gömrük şöbələri tərəfindən hesabat dövrü ərzində 321327 ədəd GPS qurğusu nəqliyyat vasitələrinin üzərinə quraşdırılaraq elektron xəritə üzərindən müşahidə edilmişdir. Hesabat dövründə mobil şöbələr tərəfindən 135 ədəd nəqliyyat vasitəsi fiziki müşayiətlə təyinat gömrük orqanına çatdırılmışdır. 2022-ci il ərzində mobil gömrük şöbələri tərəfindən əsasnaməyə uyğun olaraq 1200-dən artıq nəqliyyat vasitəsinin yükünə baxış keçirilmişdir.

Hesabat ilində Naxçıvan Baş Gömrük İdarəsinin yeni strukturunun təsdiq olunması ilə əlaqədar Mobil gömrük xidməti fəaliyyətinin ümumi prinsiplər əsasında qurulması məqsədilə Naxçıvan Baş Gömrük İdarəsinin Mobil gömrük şöbəsinin istifadəsinə 130 ədəd yeni GPS qurğusu verilmiş və həmin qurğuların Komitənin yeni elektron izləmə sisteminə inteqrasiya olunması təmin edilmişdir.

## 10.Ticarətin asanlaşdırılması tədbirləri

### 10.1. Ticarətin Asanlaşdırılması Mərkəzləri

Sərhəd keçid məntəqələrinin yüklülüyünün azaldılması, sərhəd keçid prosedurlarının sadələşdirilməsi və sürətləndirilməsi məqsədilə Azərbaycan Respublikasının gömrük ərazisində Ticarətin Asanlaşdırılması Mərkəzlərinin işinin genişləndirilməsi istiqamətində işlər 2022-ci ildə davam etdirilmişdir.

Rusiya Federasiyası ilə sərhəddə yerləşən “Xanoba” gömrük postunun ərazisində yeni gömrük sərhəd buraxılış məntəqəsində tikinti və yenidənqurma işləri yekunlaşdırılmışdır. “Xanoba” sərhəd keçid məntəqəsinin ərazisində “Ticarətin Asanlaşdırılması Mərkəzi”nin inşası üzrə işlər başa çatdırılmışdır. Sözügedən Mərkəz sərhəd buraxılış məntəqələrində əməliyyat və prosedurların daha da sürətləndirilməsinə yardım etmək, sanitar, fitosanitar, baytar və gömrük nəzarətinin sərhəd keçid məntəqəsindən kənarda, terminal ərazisində aparılmasına əlverişli imkanlar yaratmaq, eləcə də ticarət həcminin artırılması üçün nəzərdə tutulmuşdur. Mərkəz gömrük rəsmiləşdirilməsi və nəzarəti prosesini sadələşdirməklə yanaşı, öz ərazisində 500-dən çox nəqliyyat vasitəsi üçün parklanma, bank, sığorta və sürücülərin asudə vaxtını keçirməyi üçün zəruri hesab edilən digər xidmətləri cəmləşdirir.

Ölkəmizin ərazisinə Gürcüstanla sərhəddən daxil olan nəqliyyat vasitələrinin keçidinin intensivliyinin artırılması və hərəkətinin səmərəli şəkildə idarəolunması məqsədilə iki ölkə sərhədində yerləşən “Mazımqara” gömrük postunun yaxınlığında inşasına başlanılan Ticarətin Asanlaşdırılması Mərkəzi qismən istifadəyə verilmiş və nəqliyyat vasitələrinin sürətli keçidini təmin etmək məqsədilə gömrük sərhəd keçid məntəqələrində tətbiq olunan əməliyyatların bir hissəsinin Mərkəzdə icra olunması təmin edilmişdir.

Beynəlxalq tranzit yük daşımalar zamanı ölkə ərazisinə daxil olan nəqliyyat vasitələrinə alternativ keçid imkanının yaradılması məqsədilə ölkənin yük nəqliyyat vasitələrinin müxtəlif istiqamətlər üzrə hərəkətinin həyata keçirildiyi dövlət sərhədindən buraxılış məntəqələrində (“Qırmızı Körpü”, “Mazımqara”, “Astara”, “Biləsuvar”, “Samur”, “Xanoba”, “Beynəlxalq Dəniz Ticarət Limanı” gömrük postları) fəaliyyət göstərən “bir pəncərə” otaqlarında və “Qırmızı Körpü” gömrük postunun yaxınlığındakı Ticarətin Asanlaşdırılması Mərkəzində ölkədən çıxış istiqamətində sərhəd keçid məntəqələrində (təyinat gömrük orqanlarında) növbə gözləyən

nəqliyyat vasitələrinin sayı barədə məlumatları real vaxt rejimində özündə əks etdirən monitorlar quraşdırılmışdır.

29 sentyabr 2021-ci il tarixdə Bakı şəhərində imzalanmış “Azərbaycan Respublikası Hökuməti ilə Gürcüstan Hökuməti arasında Azərbaycan Respublikası və Gürcüstan arasında dövlət sərhəd buraxılış məntəqələri haqqında Saziş”ə əsasən iki ölkə sərhədində inşa ediləcək “İpək Yolu - Abreşumis Qza” birgə gömrük sərhəd buraxılış məntəqəsinin təsis edilməsi ilə bağlı 12 dekabr 2022-ci il tarixdə Dövlət Gömrük Komitəsinin Qərb Ərazi Baş Gömrük İdarəsinin Ticarətin Asanlaşdırılması Mərkəzində Azərbaycan-Gürcüstan sərhədində “İpək Yolu - Abreşumis Qza” yeni birgə buraxılış məntəqəsinin təsis edilməsi ilə bağlı hər iki tərəfin müvafiq dövlət qurumlarının nümayəndələrindən ibarət işçi qrupların görüşü keçirilmişdir.

## 10.2. Tranzit imkanları və daşımalar

27 yanvar 2022-ci il və 13 aprel 2022-ci il tarixlərində "TRASEKA" Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi üzrə Hökumətlərarası Komissiyanın Daimi Katibliyinin təşkilatçılığı ilə TRASEKA üzv dövlətləri arasında Qlobal Tranzit Sənədinin (GTrD) tətbiqi ilə əlaqədar keçirilən görüşlərdə Komitənin əməkdaşları iştirak etmişdir.

"TRASEKA" Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi üzrə Hökumətlərarası Komissiyanın Daimi Katibliyinin təşkilatçılığı ilə Qlobal Tranzit Sənədi (GTrD) tətbiq olunmaqla konteynerlərdə malların pilot daşınmasının həyata keçirilməsi üzrə “TradeLens” şirkəti tərəfindən 2022-ci ilin oktyabr ayında keçirilən onlayn formatda təlimlərdə Komitə əməkdaşlarının iştirakı təmin edilmişdir.

İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT) çərçivəsində qəbul olunmuş “Tranzit Nəqliyyatı üzrə Çərçivə Sazişi” və ona 7 nömrəli Əlavənin, eləcə də “Tranzit ticarəti haqqında Saziş”inin müddəalarından irəli gələrək tranzit yükdaşımaları (xüsusilə dəniz nəqliyyatı və dəmiryolu nəqliyyatı) zamanı gömrük nəzarəti və rəsmiləşdirilməsi məqsədilə istifadə edilməsi üçün kifayət edəcək ilkin məlumatların elektron qaydada əvvəlcədən alınaraq gömrük xidmətləri arasında (C2C) mübadiləsi mexanizminin yaradılması ilə əlaqədar İƏT çərçivəsində danışıqların aparılması ilə bağlı təkliflər məktubla Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə təqdim olunmuşdur.

Tranzit gömrük prosedurunun rəsmiləşdirilməsinin sürətləndirilməsi məqsədilə dəniz nəqliyyatı ilə gömrük ərazisinə gətirilən və tranzit daşınması dəmir yolu nəqliyyatı ilə davam etdirilən konteynerləşdirilmiş malların tranzit xüsusi gömrük proseduru altında yerləşdirilməsi üçün əvvəlcədən təqdim olunan gömrük bəyannamələri əsasında rəsmiləşdirilmənin aparılması təmin olunmuşdur.

Malların və nəqliyyat vasitələrinin tranzit xüsusi gömrük proseduru altında yerləşdirilməsi zamanı gömrük bəyannaməsinin əvvəlcədən (mallar və nəqliyyat vasitələri gömrük ərazisinə gətirilməzdən əvvəl) gömrük orqanlarına təqdim edilməsi məqsədilə “Web-transit” platformasının yaradılması ilə bağlı texniki işlərin yerinə yetirilməsi ilə əlaqədar işlər davam etdirilir.

Azərbaycan Respublikası Prezidentinin 2 iyun 2017-ci il tarixli 2947 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 iyul tarixli 2199 nömrəli Sərəncamının həyata keçirilməsinə dair Tədbirlər Planı”nın 7.2.1.1-ci yarımbəndində NCTS

sisteminin tətbiq olunmasının tezləşdirilməsi üçün milli qanunvericiliyin uyğunlaşdırılması, tranzit zəmanət sisteminin yaradılması istiqamətində tədbirlərin görülməsi müəyyən olunmuşdur. Qeyd olunan tapşırığın icrası məqsədilə Dövlət Gömrük Komitəsi tərəfindən müvafiq tədbirlər görülmüş, 2020-ci ilin iyun ayında icrasına başlanan Avropa İttifaqının maliyyə dəstəyi və İtaliya Gömrük və İnhisar Agentliyi ilə əməkdaşlıq çərçivəsində “Ümumi Tranzit Proseduru və Mallarla Ticarətdə Sənədləşmənin Sadələşdirilməsi konvensiyalarına üzv olma, eləcə də Avropa Yeni Kompüterləşdirilmiş Tranzit Sisteminə (NCTS) qoşulmaya hazırlıq prosesində dəstək” adlı Tvinninq layihəsi 2022-ci il 29 mart tarixdə başa çatdırılmışdır. Layinənin icrası çərçivəsində 3 komponent üzrə - qanunvericiliyin uyğunlaşdırılması, informasiya texnologiyaları imkanlarının uyğunlaşdırılması və əməliyyat və prosedurların uyğunlaşdırılması – fəaliyyətlər həyata keçirilmiş və hər komponent üzrə yekun hesabatlar hazırlanmışdır.

“eTIR” prosedurunun tətbiqi ilə bağlı Dövlət Gömrük Komitəsi ilə Azərbaycan Beynəlxalq Avtomobil Daşıyıcıları Assosiasiyası (bundan sonra-ABADA) arasında əlaqələndirilmiş işin təşkili məqsədilə işçi qrup yaradılmış və ABADA nümayəndələri də qeyd olunan işçi qrupa daxil edilmişdir. DGK və ABADA arasında BYD daşımaları ilə bağlı zəmanət öhdəliklərinə dair mövcud müqavilələrə dəyişiklik edilməsi işçi qrupa tapşırılmışdır. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və ABADA arasında 14 iyul 2016-cı il tarixdə imzalanmış “BYD kitabçaları üzrə Zəmanət Müqaviləsi”nə əlavələr edilməsi barədə 03.06.2022-ci il tarixdə Protokol imzalanmışdır.

“Sərbəst ticarət haqqında Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında Saziş”i, “Azərbaycan Respublikası Hökuməti ilə Gürcüstan Hökuməti arasında dəmir yolu nəqliyyatının fəaliyyətinin əlaqələndirilməsi haqqında" Sazişi və “Tarixi İpək Yolunun Bərpası üzrə Beynəlxalq Konfransda imzalanmış “Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafına dair beynəlxalq nəqliyyat haqqında Əsas Çoxtərəfli Sazişi” çərçivəsində Azərbaycan Respublikasından ixrac edilən və ya tranzit daşınan malların (neft və neft məhsullarının) üçüncü ölkəyə keçirilməyəcəyinə dair Gürcüstanın öhdəliyinin olduğunu nəzərə alaraq Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin birgə müraciəti ilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin razılığı əsasında öhdəlik sənədi (zəmanət məktubu) tələb olunmadan gömrük rəsmiləşdirilməsinin başa çatdırılaraq malların və nəqliyyat vasitələrinin buraxılışının həyata keçirilməsinə başlanılmışdır.

18 avqust 2022-ci il tarixdə Bakı şəhərində “Azərbaycan Respublikası Hökuməti, Gürcüstan Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi çərçivəsində tranzit gömrük prosedurlarının asanlaşdırılması üçün ilkin məlumat mübadiləsinə dair Saziş” imzalanmışdır.

22 avqust 2022-ci il tarixdə Tehran şəhərində “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi, Federal Gömrük Xidməti (Rusiya Federasiyası) və İran İslam Respublikasının Gömrük İdarəsi arasında tranzitin asanlaşdırılması üzrə Anlaşma Memorandumu” imzalanmışdır.

### 10.3. “Yaşıl dəhliz” buraxılış sistemi

Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilmiş prioritet hədəflər çərçivəsində və Ümumdünya Gömrük Təşkilatının “Gömrük prosedurlarının sadələşdirilməsi və uzlaşdırılması haqqında” Beynəlxalq Konvensiyasının (Yenilənmiş Kyoto Konvensiyası) 3.32-ci bəndinə müvafiq olaraq 2019-cu il 1 fevral tarixdən etibarən “Yaşıl dəhliz” buraxılış sistemi tətbiq edilməkdədir.

“Yaşıl dəhliz” buraxılış sistemindən daimi istifadə hüququnun əldə olunması ilə əlaqədar 2022-ci il ərzində 100 xarici ticarət iştirakçısı müraciət etmişdir. Bunlardan idxal üzrə 66 xarici ticarət iştirakçısı, ixrac üzrə 14, həm idxal, həm ixrac üzrə isə 20 xarici ticarət iştirakçısı müraciət etmişdir. Daxil olmuş müraciətlərin təhlilinin nəticəsi olaraq 17 xarici ticarət iştirakçısına idxal əməliyyatları, 18 xarici ticarət iştirakçısına ixrac üzrə ümumilikdə 35 xarici ticarət iştirakçısına “Yaşıl dəhliz” buraxılış sistemindən daimi istifadə hüququ verilmiş və bu barədə hər birinə bildiriş göndərilmişdir. Qeyd edək ki, 4 xarici ticarət iştirakçısına həm idxal, həm ixrac əməliyyatları üzrə “Yaşıl dəhliz” buraxılış sistemindən daimi istifadə hüququ verilmişdir. Hüquqpozma faktlarının araşdırılması nəticəsində 2022-ci il ərzində idxal əməliyyatları üzrə 6, ixrac əməliyyatlar üzrə 2 xarici ticarət iştirakçısının “Yaşıl dəhliz” buraxılış sistemindən daimi istifadə hüququ dayandırılmışdır. İdxal əməliyyatları üzrə 8, ixrac əməliyyatları üzrə 4 xarici ticarət iştirakçısının “Yaşıl dəhliz” buraxılış sistemindən daimi istifadə hüququ ləğv edilmişdir. İdxal əməliyyatları üzrə 8, ixrac əməliyyatları üzrə 2 olmaqla ümumilikdə 10 xarici ticarət iştirakçısının (həm idxal, həm ixrac əməliyyatları üzrə) “Yaşıl dəhliz” buraxılış sistemindən daimi istifadə hüququ bərpa edilmişdir.

2019-cu ildən etibarən “Yaşıl dəhliz” buraxılış sistemindən daimi istifadə hüququnun əldə olunması ilə əlaqədar 1160 xarici ticarət iştirakçısı müraciət etmişdir. Bunlardan yalnız idxal üzrə 700 xarici ticarət iştirakçısı, yalnız ixrac üzrə 151, həm idxal, həm ixrac üzrə isə 308 xarici ticarət iştirakçısı müraciət etmişdir. Daxil olmuş müraciətlərin təhlilinin nəticəsi olaraq 508 xarici ticarət iştirakçısına idxal əməliyyatları üzrə, 284 xarici ticarət iştirakçısına ixrac üzrə, 792 xarici ticarət iştirakçısına “Yaşıl dəhliz” buraxılış sistemindən daimi istifadə hüququ verilmiş və bu barədə hər birinə bildiriş göndərilmişdir.

“Yaşıl dəhliz” buraxılış sistemindən daimi istifadə hüququnu əldə etmiş xarici ticarət iştirakçılarının idxal-ixrac əməliyyatları zamanı meydana çıxmış çətinliklərin operativ qaydada aradan qaldırılması, malların gömrük rəsmiləşdirilməsi zamanı meydana çıxan sualların dərhal cavablandırılması məqsədilə yaradılmış “Yaşıl dəhliz” dəstək qrupu tərəfindən mütəmadi olaraq xarici ticarət iştirakçılarına əməli və praktiki köməklik göstərilmişdir.

Xidməti zərurət ilə əlaqədar olaraq gömrük nəzarətinin gücləndirilməsi və qeydiyyat prosesinin təkmilləşdirilməsi məqsədilə xarici ticarət iştirakçıları tərəfindən “Yaşıl dəhliz” buraxılış sistemindən daimi istifadə hüququnun əldə edilməsinə dair yeni elektron müraciət forması hazırlanmış və DGK-nın rəsmi internet səhifəsində və eləcə də xarici ticarət iştirakçısının şəxsi kabinetində müraciətlər bölməsində yerləşdirilmişdir.

Hesabat dövründə “Yaşıl dəhliz” buraxılış sistemindən daimi istifadə hüququ əldə etmiş 32 xarici ticarət iştirakçısına məxsus anbar məlumatları qeydə alınaraq idxal olunan malların birbaşa anbarlarına aparılmasına buraxılış imkanı yaradılmışdır.

Xarici ticarət iştirakçıları tərəfindən gömrük anbarlarının qeydiyyata alınmasına dair Dövlət Gömrük Komitəsinə ünvanlanmış müraciətlərin sistemləşdirilməsi, cavablandırılması və emalın sürətləndirilməsi məqsədilə gömrük anbarlarının qeydiyyata alınmasına dair elektron müraciət forması, həmçinin “Yaşıl dəhliz” buraxılış sistemindən daimi istifadə hüququnu əldə etmiş xarici ticarət iştirakçılarının gömrük anbarlarının qeydiyyata alınması və müvafiq gömrük yoxlanılmasının gücləndirilməsi məqsədilə gömrük anbarlarının yoxlanılmasına dair aktın nümunəsi hazırlanaraq DGK-nın rəsmi internet səhifəsində və eləcə də xarici ticarət iştirakçısının şəxsi kabinetində müraciətlər bölməsində yerləşdirilmişdir.

“Yaşıl dəhliz” buraxılış sisteminin səmərəliliyinin və məmnuniyyət səviyyəsinin ölçülməsi, mövcud sistemdən istifadə zamanı qarşılaşdıqları çətinliklər və təkliflər barədə məlumatların

toplanılması məqsədilə "Yaşıl dəhliz" buraxılış sistemindən daimi istifadə hüququ əldə etmiş xarici ticarət iştirakçılarının şəxsi kabinetlərində məlumat xarakterli sorğu yerləşdirilmişdir.

## 11. Rəqəmsal gömrük layihələri

Hesabat ili ərzində Dövlət Gömrük Komitəsində elektron gömrük xidmətləri sahəsində aşağıdakı yeniliklər həyata keçirilmişdir:

- e-gov.az elektron hökumət portalına "xRoad" üzərindən giriş "AsanBridge" üzərindən girişlə əvəzlənmişdir.

- e.customs.gov.az portalında "Elektron gömrük ödənişləri" xidməti əlavə edilmişdir. Xidmət vasitəsilə istifadəçilər gömrük ödənişləri üzrə borclar haqqında məlumat əldə edirlər. Eyni zamanda sənəd nömrəsi ilə axtarış etməklə hökumət ödəniş portalı üzərindən ödənişləri birbaşa həyata keçirmək imkanı yaradılmışdır.

- "Sadələşdirilmiş bəyannamə (sərnişin)" elektron xidmətinin veb, mobil, köşk variantlarının yeni versiyaları hazırlanaraq Hava Nəqliyyatında Baş Gömrük İdarəsində test variantında istifadəyə verilmişdir.

- "Səlahiyyətlərin verilməsi" xidmətində bankın rəhbərinə öz əməkdaşlarına müqavilə üzrə ödənişlərin qeydiyyatı əməliyyatlarının aparılması üçün səlahiyyətlər vermə imkanı yaradılmışdır.

- "Nəqliyyatın idxalı üçün gömrük rüsumlarının hesablanması" elektron xidmətinin yeni veb, mobil, köşk versiyaları hazırlanmış və istifadəyə verilmişdir.

- "Sadələşdirilmiş bəyannamə - elektron ticarət" elektron xidmətində "həvalə et" funksiyası əlavə edilmişdir.

- "Sadələşdirilmiş bəyannamə - elektron ticarət" elektron xidmətində bəyannaməçinin borclanmadığı hallarda bəyannaməyə düzəliş etmək və ya onu silmək funksiyaları əlavə edilmişdir.

- "Xarici iqtisadi fəaliyyət iştirakçılarına həyata keçirdikləri idxal-ixrac əməliyyatları barədə statistik məlumatların verilməsi" elektron xidmətində 2 yeni hesabat forması əlavə edilmişdir:

- Konsiqnasiya yolu ilə keçirilən mallar üzrə hesabat;
- Bəyannaməçi tərəfindən yazılmış gömrük bəyannamələri üzrə hesabat.

Bütün növ hesabatları Excel formatında əldə etmək imkanı təmin edilmişdir.

- "e-müraciətlər" elektron gömrük xidməti təkmilləşdirilmiş və xidmətə yeni müraciət növləri əlavə edilmişdir:

- Rüsumsuz ticarət mağazasının təsis edilməsi üçün müraciət;
- Məcburi qərarlar;
- Gömrük prosedurlarının müddətinin uzadılmasına dair müraciət;
- "AVRO-4" ekoloji normalarına uyğunluq barədə sertifikatın alınmasına dair müraciət.

- e.customs.gov.az portalında "Xidmətlərin statistikası" xidməti əlavə olunmuşdur. Xidmət vasitəsilə elektron xidmətlərdən istifadə statistikası, xidmətlərin sayı, portal və mobil tətbiq üzərindən istifadə sayı, elektron xidmətlərdən istifadə edən fiziki və hüquqi şəxslərin sayı barədə məlumat verilir.

- Elektron köşklər üçün proqram təminatının yeni versiyası hazırlanmış və aşağıdakı xidmətlər əlavə edilmişdir:

- “Gömrük ödənişlərinin ödəyicisinə eyniləşdirmə nömrəsinin (GÖÖEN) verilməsi”;
- “Sadələşdirilmiş bəyannamə (sərnişin)”;
- “Sadələşdirilmiş bəyannamə - Elektron ticarət”;
- “Sərhədkeçmə məhdudiyyətinin yoxlanılması”;
- “Elektron gömrük ödənişləri”;
- “Nəqliyyatın idxalı üçün gömrük rüsumlarının hesablanması”;
- “Fiziki şəxslər üçün məlumat”.

- Dövlət Gömrük Komitəsinin elektron xidmətlər portalında şəxsi hesab vərəqəsi bölməsi yaradılmış, pilot rejimdə istifadəyə verilmişdir.

- e.customs.gov.az portalının “Açıq məlumatlar” bölməsinə “Nəqliyyatın idxalı üçün gömrük rüsumlarının hesablanması” xidmətinin “APİ”-si əlavə edilmişdir.

- Vətəndaşların müraciətlərinin operativ cavablandırılması üçün Komitənin rəsmi internet səhifəsində və “Smart Customs” mobil tətbiqində xüsusi alqoritm əsaslı çat sistemi (Chat Bot) hazırlanaraq istifadəyə verilmişdir.

- Dövlət Gömrük Komitəsinin rəsmi internet səhifəsində, elektron xidmətlər portalında və “Smart Customs” mobil tətbiqində “Tez-tez verilən suallar” (FAQ) bölməsi hazırlanaraq istifadəyə verilmişdir.

İnteqrasiya və məlumat mübadiləsi sahəsində 2022-ci il ərzində qarşıya qoyulan tapşırıqların icra edilməsi davam etdirilmişdir. Belə ki:

- Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin “Elektron Gömrük Bəyannaməsi haqqında məlumatların əldə edilməsi” gömrük xidmətinə qoşulması təmin edilmiş, həmçinin fiziki şəxslər tərəfindən ölkə ərazisinə gətirilən nəqliyyat vasitələrinə gömrük orqanları tərəfindən verilən müvəqqəti vəsiqələr haqqında məlumatların real vaxt rejimində Nazirliyə ötürülməsi təmin edilmişdir.

- Dövlət Gömrük Komitəsi və “Azərbaycan Dəmir Yolları” QSC arasında məlumat mübadiləsi təmin edilmiş və VAİS-in “Qeydiyyat” menyusu altında “ADY ilkin məlumatlar” modulu yaradılmış və test edilmişdir.

- Türkiyə Respublikası tərəfindən verilən “Yaşıl kart”ların yoxlanılması üçün VAİS ilə İcbari Sığorta Bürosunun məlumat sistemi arasında məlumat mübadiləsi aparılmışdır.

- Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin yeni elektron sistemi ilə VAİS arasında məlumat mübadiləsi genişləndirilmişdir. Tranzit keçən və Agentliyin nəzarətində olan mallar barədə məlumatlar Agentliyə ötürülür. AQTA tərəfindən malların idxalı, ixracı və tranzit keçirilməsi üzrə verilən bütün növ icazə sənədlərinin VAİS-ə ötürülməsi təmin edilmişdir. Komitə icazə sənədi verilmiş malların gömrük sərhəd buraxılış məntəqələrindən keçməsi barədə məlumatların əldə olunmasını Agentlik üçün təmin etmişdir.

- Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin informasiya sistemi ilə VAİS arasında ETSN tərəfindən verilən malların idxalı və ixracı üçün icazə sənədləri üzrə məlumat mübadiləsinin aparılması təmin edilmişdir.

- Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin informasiya sistemi ilə VAİS arasında Respublikaya idxal olunan mobil telefonların İMEİ kodları üzrə məlumat mübadiləsinin təmin olunması üçün müvafiq servislər təqdim olunmuşdur.

- Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi ilə Rusiya Federasiyası, Ukrayna, Özbəkistan, Qazaxıstan və Belarus Respublikasının gömrük xidmətləri arasında xarici ticarətin gömrük statistikası üzrə 2021-ci ilin IV rübü, 2021-ci il (illik) və 2022-ci ilin I-III rübləri üçün informasiyanın elektron mübadiləsi həyata keçirilmişdir.

- Taxıl məhsulları, şəkər və s. qida məhsullarının idxalı haqqında operativ məlumatlar gündəlik və həftəlik olaraq Azərbaycan Respublikasının Nazirlər Kabinetinə, İqtisadiyyat Nazirliyinə və Qida Təhlükəsizliyi Agentliyinə təqdim edilmişdir.

## 12. Gömrük infrastrukturunun yenilənməsi

### 12.1. Gömrük sərhəd keçidinin sürətləndirilməsi

Malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsinin sürətləndirilməsi, gömrük sərhəd buraxılış məntəqələrinin infrastrukturunun təkmilləşdirilməsi, sərhədkeçmə proseslərinin sadələşdirilməsi istiqamətində aşağıdakı tədbirlər həyata keçirilmişdir:

- Şimal – Cənub nəqliyyat dəhlizi vasitəsilə daşınan yüklərin əksər hissəsinin “Samur” – “Yaraq-Qazmalar” gömrük sərhəd buraxılış məntəqələrindən keçirilməsi qeyd olunan gömrük sərhəd buraxılış məntəqələrində son illər ərzində sıxlıqların və növbələrin yaranmasını nəzərə alaraq “Şirvanlı”–“Novo Filya” gömrük sərhəd buraxılış məntəqələrinin fəaliyyətinin 24 saatlıq iş rejimində təşkil edilməklə, gündəlik olaraq hər iki istiqamət üzrə buraxılışı təmin edilən boş yük nəqliyyat vasitələrinin sayının 150-yə qədər artırılaraq və məsələ ilə bağlı müvafiq tapşırıq verilməsi üçün Azərbaycan Respublikası Nazirlər Kabinetinə müraciət olunmuşdur. Aparılmış danışıqların nəticəsi üzrə Rusiya tərəfi ilə razılaşdırılmaqla “Şirvanlı” – “Novo Filya” gömrük sərhəd buraxılış məntəqələrinin fəaliyyəti 28 mart 2022-ci il tarixdən 24 saatlıq iş rejimində təşkil edilmiş və gündəlik olaraq hər iki istiqamət üzrə buraxılışı təmin edilən boş yük nəqliyyat vasitələrinin sayına tətbiq edilən məhdudiyyət aradan qaldırılmışdır.
- Azərbaycan Respublikası Prezidentinin 27 aprel 2020-ci il tarixli Sərəncamına uyğun olaraq Rusiya Federasiyası ilə sərhədimizdə yenidən inşasına başlanılan “Xanoba” gömrük sərhəd buraxılış məntəqəsinin ilkin fəaliyyətinin təşkili və gömrük nəzarəti tədbirləri zamanı prosedur və əməliyyatların daha səmərəli qaydada tətbiqi üçün müvafiq infrastrukturun qurulması ilə bağlı işçi qrup yaradılmış və zəruri işlər həyata keçirilərək Rusiya Federasiyası ilə razılaşdırılmaqla 29 aprel 2022-ci il tarixdən hər iki istiqamət üzrə yük nəqliyyat vasitələrinin (gündəlik olaraq 100-150 yük nəqliyyat vasitəsi) buraxılışına başlanmışdır. Tam fəaliyyətə başlamasından sonra “Xanoba” gömrük postundan gündəlik olaraq hər iki istiqamət üzrə 550 yük və 600 ədəd minik nəqliyyat vasitəsinin, 30-dan artıq avtobusun və 1000 nəfərədək fiziki şəxsin keçidinə imkan yaradılacaqdır.
- Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında Araz çayı üzərində iki avtomobil körpüsünün, piyada keçidinin və dəmiryolu körpülərinin tikintisindən sonra həmin ərazidə (Zəngilan rayonu) gündəlik olaraq 500 ədəd giriş və 500 ədəd çıxış olmaqla, ən azı 1000 ədəd yük nəqliyyat parkını qəbul edə biləcək yeni dövlət sərhədindən buraxılış məntəqəsinin inşası üzrə Dövlət Gömrük Komitəsinə aid tapşırıqların icrası nəzarətdə saxlanılmışdır.
- Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında 09 iyun 2021-ci il tarixdə imzalanmış “Azərbaycan Respublikası və İran İslam Respublikası dövlət sərhədindən “Astara” (Azərbaycan Respublikası) - “Astara” (İran İslam Respublikası) dövlət sərhəd keçid buraxılış məntəqələri ərazisində Astaraçay çayı üzərində avtomobil körpüsünün və piyada keçidinin tikintisi haqqında Anlaşma Memorandumu”na uyğun olaraq həmin ərazidə yeni dövlət sərhədindən buraxılış məntəqəsinin inşası ilə əlaqədar “Astara” rayonu ərazisində

koordinatları müəyyən edilmiş torpaq sahəsinin ayrılması ilə əlaqədar (Komitənin 29.10.2022-ci il tarixli 1000-230/001-21/019991 nömrəli məktubu) Azərbaycan Respublikası Nazirlər Kabinetinə müraciət olunmuşdur.

- Şimal-Cənub Beynəlxalq nəqliyyat dəhlizi yaradılması ilə əlaqədar İran İslam Respublikası ilə Azərbaycan Respublikasının sərhəd zolağında yeni gömrük postunun və sərhəd zolağında Zəngilan rayonu ərazisində "Ağbənd" gömrük postlarının tikintisi ilə əlaqədar torpaq sahələrinin ayrılması üçün müraciət olunmuşdur.

- Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" nın Tədbirlər Planının 1.1.10-cu yarımbəndinin müddəalarının (Şimal, cənub, qərb istiqamətləri əsas olmaqla ən azı üç quru dövlət sərhədindən buraxılış məntəqələrinin infrastrukturunun turizm baxımından müasir tələblərə uyğunlaşdırılması) icrasını təmin etmək məqsədilə Biləsuvar, "Qırmızı Körpü" və Samur dövlət sərhədindən buraxılış məntəqələrində mövcud piyada keçid xəttlərinin infrastrukturunda yenidənqurma işləri aparılması üçün layihələr hazırlanmış və Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Agentliyinin rəyi alınmışdır. Layihələrlə bağlı maliyyə vəsaitinin ayrılması üçün müvafiq tədbirlərin həyata keçirilməsi məqsədilə Dövlət Turizm Agentliyinə müraciət edilmişdir.

- Ölkəmizin ərazisinə Gürcüstanla sərhəddən daxil olan nəqliyyat vasitələrinin keçidinin intensivliyinin artırılması və hərəkətinin səmərəli şəkildə idarəolunması məqsədilə iki ölkə sərhədində yerləşən "Mazımqara" gömrük postunun yaxınlığında inşasına başlanılan Ticarətin Asanlaşdırılması Mərkəzi qismən istifadəyə verilmiş və nəqliyyat vasitələrinin sürətli keçidini təmin etmək məqsədilə gömrük sərhəd keçid məntəqələsində tətbiq olunan əməliyyatların bir hissəsinin mərkəzdə icra olunması təmin edilmişdir;

- Mərkəzi Hospitalın 5 mərtəbəli korpusunun yenidən qurulması üzrə işləri və poliklinika binasının ərazisində yeni inşa olunacaq reabilitasiya, stomatologiya və inzibati korpusunun layihə-smeta sənədlərinin hazırlanması davam etdirilmişdir.

## 12.2. Gömrük orqanlarının maddi-texniki bazasının möhkəmləndirilməsi

Dövlət Gömrük Komitəsi ilə "Smiths Heimann" şirkəti arasında X-ray avadanlıqlarının əldə edilməsinə dair bağlanılmış müqavilələr əsasında əldə edilmiş 1 ədəd - HCVG 6040 və 1 ədəd - CIP 300 Compact markalı yoxlama baxış sistemləri yeni inşa edilən "Xanoba" gömrük sərhəd keçid məntəqəsində quraşdırılmışdır və istismara hazır vəziyyətə gətirilmişdir. "Xanoba" gömrük sərhəd keçid məntəqəsində "Smiths Heimann" şirkətindən və digər şirkətlərdən əldə edilmiş yeni texniki nəzarət vasitələrinin ("HS 180180T-2s pro", "HS 100100T-2s", "HS 7555si", "HS 7555ax", "HS 6046si", "B-Scan 16HR-LD 250" rentgen avadanlıqları, "HİPE PLUS Classic Multizone" markalı, stasionar tipli metalaxtaran çərçivə, "CEİA PD140" markalı, portativ tipli metalaxtaran) quraşdırılması işləri həyata keçirilmişdir. "Xanoba" gömrük sərhəd keçid məntəqəsində yük nəqliyyat vasitələrinin çəkisinin müəyyən edilməsi məqsədilə Türkiyə Respublikasının "Taralsa" şirkətindən əldə olunan 4 (dörd) ədəd stasionar tipli operatorsuz (barkod əsasında işləyən) tərəzilər quraşdırılmışdır və istismara hazır vəziyyətə gətirilmişdir.

Gömrük sərhəd keçid məntəqələrində istismarda olan rentgen qurğuları üzrə aparılan qeyri-intruziv yoxlamaların səmərəliliyinin artırılması və məmur-vətəndaş təmasının aradan qaldırılması məqsədilə mərkəzləşdirilmiş qaydada "X-Ray Təhlil Mərkəzinin" yaradılması istiqamətində tərəfimizdən layihə hazırlanaraq maliyyələşdirilməsi üçün Böyük Britaniya

Səfirliyinə təqdim olunmuşdur. Sözügedən məsələnin həlli məqsədilə üçtərəfli (Dövlət Gömrük Komitəsi, Böyük Britaniya Səfirliyi və Smiths Detection şirkəti) görüşlər təşkil olunmuş və layihənin icrası ilə bağlı ilkin müsbət addımlar atılmışdır.

Beynəlxalq statusa malik hava limanlarından biri olan Gəncə Hava Limanında gömrük nəzarətinin səmərəli qaydada həyata keçirilməsi və qaçaqmalçılıq faktlarının qarşısının alınmasında yararlı olan B-Scan (insanların üzərlərində və daxili orqanlarında gizlədilən yad cisimlərin aşkarlanması üçün) rentgen avadanlığı quraşdırılaraq istifadəyə verilmiş, Qəbələ Hava Limanında isə gömrük yoxlanışından yayınma hallarının qarşısının alınması ilə əlaqədar hal-hazırda istismarda olan rentgen qurğusunun yeri texnoloji sxemə tam olaraq uyğunlaşdırılmışdır.

Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Böyük Britaniya Daxili İşlər Nazirliyinin Beynəlxalq Əməliyyatlar İdarəsinin birgə həyata keçirdiyi "Hunter" layihəsi çərçivəsində gömrük əməkdaşları üçün "Agilent Technologies" şirkətinin istehsalı olan reaktiv maddə aşkarlama cihazının istifadə qaydaları" mövzusunda təlim təşkil edilmiş və müvafiq avadanlıq xidməti istifadə üçün gömrük orqanının balansına verilmişdir.

ABŞ Dövlət Departamentinin “İxrac Nəzarəti və Əlaqədar Sərhəd Təhlükəsizliyi (EXBS) Proqramı” çərçivəsində əvəzsiz olaraq əldə edilmiş, ümumi dəyəri 83.015 ABŞ dolları olan 7 ədəd – MiniRad-D G3 Gamma PRD (fərdi radiasiya dozimetri), 1 ədəd - CSECO CT-40 Kit (gömrük çamadanı), 3 ədəd - Zistos All Surface Vehicle Search System (nəqliyyat vasitəsi axtarış sistemi) və 1 ədəd - Sabre 5000 (partlayıcı, kimyəvi və narkotik maddələrin daşıyıcılarını müəyyən edən avadanlıq) texniki nəzarət vasitələrinin ərazi və ixtisaslaşdırılmış baş gömrük idarələri arasında bölgüsü aparılmışdır.

## 13. Gömrük işində hüquqpozmalara qarşı mübarizə

### 13.1. İstintaq-təhqiqat tədbirləri

2022-ci il ərzində Azərbaycan Respublikasının gömrük orqanları tərəfindən əməliyyat-axtarış, təhqiqat və istintaq fəaliyyətinin, habelə gömrük nəzarətinin gücləndirilməsi istiqamətində həyata keçirilmiş kompleks tədbirlər nəticəsində **28 475 hüquqpozma** faktı aşkar edilmiş, beləliklə 2021-ci illə (17144 fakt) müqayisədə **66% artım** qeydə alınmışdır.

Bu faktlardan **694-ü cinayət xarakterli** (2021-ci illə (418 fakt) müqayisədə 66% çox) faktlar olmuşdur ki, onlardan:

**- 123 fakt üzrə** qaçaqmalçılıq (AR CM: maddə 206) cinayət əməli ilə bağlı tutulmuş qaçaqmalçılıq əşyalarının dəyəri 3 milyon 713 min manatdan çox;

**- 17 fakt üzrə** aksiz markası ilə markalanmalı olan məhsulları (malları) belə marka olmadan idxal etmə (AR CM: maddə 213-1) cinayət əməli ilə bağlı aşkar edilmiş məhsulların (malların) dəyəri 592 855,40 manat;

**- 498 fakt üzrə** xarici valyuta vəsaitlərini xaricdən qaytarmama (AR CM: maddə 208) cinayət əməli ilə bağlı qaytarılmayan xarici valyuta vəsaitlərinin məbləği 570 444 230,80 ABŞ dolları və 315 765,73 Avro;

**- 15 fakt üzrə** gömrük ödənişlərinin ödənilməsindən yayınma (AR CM: maddə 209) cinayət əməli ilə bağlı ödənilməyən gömrük ödənişlərinin məbləği 4 362 214,41 manat;

**- 59** digər cinayət xarakterli **fakt üzrə** aşkar edilmiş hüquqpozma predmetlərinin dəyəri 474 453,17 manat təşkil etmişdir. Cinayət xarakterli əməllərin törədilməsində şübhəli bilinən **708 nəfər** (516 Azərbaycan vətəndaşı, 192 xarici) barəsində müvafiq tədbirlər görülmüşdür.

Cinayət faktlarından 338-i Şimal Ərazi BGİ, 85-i Cənub Ərazi BGİ, 66-sı Sumqayıt BGİ, 64-ü Qərb Ərazi BGİ, 53-ü Hava Nəqliyyatında BGİ, 37-si Bakı BGİ, 24-ü Naxçıvan BGİ, 15-i DGK-nın Əməliyyat-İstintaq Baş İdarəsi, 7-si Aksizli mallar üzrə BGİ, 5-i Enerji Resursları və Dəniz Nəqliyyatında BGİ tərəfindən aşkar olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2019-cu il tarixli 1334 saylı Sərəncamı ilə təsdiq edilmiş “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı”nın icrasını təmin etmək və gömrük sərhədindən narkotiklərin qanunsuz keçirilməsinin qarşısını almaq məqsədilə gömrük orqanları tərəfindən (o cümlədən digər hüquq-mühafizə orqanları ilə birlikdə) görülmüş qətiyyətli tədbirlər nəticəsində hesabat dövründə **narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi** ilə əlaqədar **77 fakt** (2021-ci illə (55 fakt) müqayisədə 40% çox) aşkar olunmuşdur. Bu faktlar üzrə ümumilikdə **934 kq 428 qramdan çox** (2021-ci illə müqayisədə 69.3% az) **narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları** qanunsuz dövriyyədən götürülmüşdür. Götürülmüş narkotiklərin **89,6%-ni** daha təhlükəli ağır narkotiklər olan **heroin və metamfetamin** təşkil etmişdir.

Xüsusi narahatlıq doğuran məsələlərdən biri də qanunsuz dövriyyədən çıxarılmış, qara bazarda “patı” adlandırılan **metamfetaminin** miqdarının əvvəlki illərlə müqayisədə **rekord həddə** çatması, 2021-ci illə müqayisədə (194 kq 122 qram ) 95% artaraq 2022-ci il ərzində **379 kq 510 qram** təşkil etməsidir. Bundan əlavə 458 kq 304 qramdan çox heroin, 57 kq 104 qramdan çox tiryək, 5 kq 106 qram həşiş, 32 kq 367 qramdan çox marixuana, 260,89 qram kokain, 514,954 qram metadon, 732 qramdan çox metilendioksiamfetamin, 254,79 qram mefedron (4-metilmetkatinon),104,3 qram MDMA (ekstazi), 97,28 qram amfetamin və digər maddələr qanunsuz dövriyyədən çıxarılmışdır.

2022-ci il ərzində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən **79 nəfər:** 78-i kişi, 1-i qadın olmaqla 22 nəfər Azərbaycan vətəndaşı, 57 nəfər əcnəbi (32 İran, 8 Rusiya, 14 Türkiyə, 1 Qazaxıstan, 1 Maldiv Respublikası və 1 Pakistan vətəndaşı) barəsində müvafiq tədbirlər görülmüş, **4 halda** bu əməlləri törədən **cinayətkar dəstə** ifşa edilmişdir.

Narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları 17 halda İrandan, 3 halda Türkiyədən, 3 halda Rusiyadan, 2 halda Gürcüstandan, 2 halda Qazaxıstandan, 1 halda Böyük Britaniyadan, 1 halda Niderlanddan, 1 halda Amerika Birləşmiş Ştatlarından Azərbaycana gətirilərkən, 2 halda Türkiyəyə, 2 halda Rusiyaya, 2 halda Qətərə, 1 halda İrana, 1 halda Avstraliyaya aparılarkən, 35 halda isə tranzit yolla (10 halda İran-Azərbaycan-Gürcüstan, 7 halda İran-Azərbaycan-Türkiyə, 6 halda İran-Azərbaycan-Rusiya, 3 halda İran-Azərbaycan-Türkiyə-Almaniya, 2 halda İran-Azərbaycan-Türkiyə-Polşa, 2 halda İran-Azərbaycan-Türkiyə-Niderland, 2 halda Gürcüstan-Azərbaycan-Qazaxıstan, 1 halda İran-Azərbaycan-Türkiyə-Bolqarıstan, 1 halda İran-Azərbaycan-Ermənistan, 1 halda Gürcüstan-Azərbaycan-Rusiya) keçirilərkən saxlanılmışdır (4 halda isə ölkə daxilində həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində saxlanmışdır).

Hesabat dövründə, gömrük orqanı əməkdaşları tərəfindən 36 fakt üzrə ümumilikdə **697,206 qram** (168,75 qram baklofen, 8 qram boldenon, 1 qram dehidroxlormetiltestosteron, 5

qram drostanolon, 2 qram nandrolon, 7,5 qram oksimetolon, 352,05 qram preqabalin, 123,9 qram qabapentin, 27,006 qram tramadol və 2 qram trenbolon) **və 17 658 ədəd sibutramin** tərkibli **güclü təsiredici maddələr** qanunsuz dövriyyədən çıxarılmışdır. Sözügedən dövr ərzində gömrük orqanları tərəfindən **1 fakt** üzrə **zəhərli maddə** hesab olunan 0,3 qram erqotamin C aşkar olunaraq götürülmüşdür.

2022-ci il ərzində Azərbaycan Respublikası gömrük orqanları tərəfindən aşkar olunmuş **27781 gömrük qaydaları əleyhinə inzibati xəta faktları** (2021-ci illə müqayisədə (16726 fakt) 66% artmışdır) üzrə 2128 hüquqi şəxs (o cümlədən 602 xarici hüquqi şəxs) və 25657 fiziki şəxs (o cümlədən 15028 xarici) inzibati məsuliyyətə cəlb edilmiş, göstərilən şəxslərə qarşı **4 393 266 manat** cərimə tətbiq olunmuş, dəyəri **1 125 377 manat** olan mallar məhkəmə orqanları tərəfindən müsadirə edilmişdir.

Gömrük qaydaları əleyhinə inzibati xətalar əsasən malların, nəqliyyat vasitələrinin və ya onlara aid sənədlərin müəyyən edilmiş müddətdə təyinat gömrük orqanına çatdırılmaması (87%), qısa idxal bəyannaməsinin mallar gömrük ərazisinə gətirilməzdən əvvəl elektron formada verilməməsi (5%), malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən gömrük nəzarətindən gizlədilməklə keçirilməsi (1%), bəyan edilməməsi və ya düzgün bəyan edilməməsi (1%), gömrük ödənişlərinin (borcunun) ödənilməsindən yayınma (1%), malların və nəqliyyat vasitələrinin gömrük ərazisindən müəyyən edilmiş müddətdə kənara aparılmaması, yaxud həmin əraziyə qaytarılmaması (1%) ilə əlaqədar olmuşdur.

«Valyuta tənzimi haqqında» Qanuna və digər qanunvericilik aktlarına əsasən gömrük orqanları **valyuta və valyuta sərvətlərinin** Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsi üzərində nəzarəti həyata keçirərkən qanunvericiliyin tələblərini pozan şəxslərdən 535 484 ABŞ dolları (7300 saxta ABŞ dolları), 32 250 Avro, 1 670 000 rus rublu, 11 000 Azərbaycan manatı, 1 053 039,45 manat dəyərində 2604 ədəd qızıl zinət əşyaları, külçə və sikkələr, 18 163,5 manat dəyərində 10,035 karat qiymətli daşlar, 7663,67 manat dəyərində 311 ədəd gümüş zinət əşyası aşkar olunmuşdur.

Hesabat dövründə gömrük orqanları tərəfindən 332 734 manat dəyərində avtomobil ehtiyat hissələri, 1 337 461 manat dəyərində **9568 ədəd mobil telefon** və 1801 ədəd mobil telefonların aksesuarları, 48250 manat dəyərində bitki və bitki toxumları, 44675 manat dəyərində **202341 ədəd elektron siqaretlər,** 101 340 manat dəyərində 5901 ədəd kosmetik vasitə, 85 371 manat dəyərində 34 ədəd kompüter və 229 ədəd kompüterin ehtiyat hissələri, 127 457 manat dəyərində məişət texnikası və əşyaları, 241725 manat dəyərində **984292 ədəd pirotexniki məmulatlar**, 175 ədəd soyuq silah, 3 ədəd pnevmatik silah və xeyli miqdarda digər mallar tutulmuşdur.

Hesabat dövründə gömrük orqanları tərəfindən **78** hüquqpozma faktı üzrə 314 774 manat dəyərində **dərman vasitələrinin,** 171 533 manat dəyərində tibbi ləvazimatların, 75 729 manat dəyərində qida əlavələrinin qanunsuz dövriyyəsinin qarşısı alınmışdır.

2022-ci il ərzində gömrük orqanları tərəfindən həyata keçirilən tədbirlər nəticəsində **istifadəyə yararsız** hesab olunmuş 1 (bir) ədəd “Nokia Phoneplus” markalı mobil telefon, 1 ədəd mobil telefon adapteri və 1 ədəd smart saat, 580 qutu müxtəlif markalı siqaretlər və 10 qutu "Heets" markalı elektron siqaretlər aşkar edilərək hüquqpozmanın predmeti kimi götürülmüşdür.

Hesabat dövründə Azərbaycan Respublikasının və xarici ölkələrin **bədii, tarixi və arxeoloji sərvətlərin** qorunması sahəsində tarixi əhəmiyyət kəsb edən və Azərbaycan Respublikasının Milli mədəniyyət əmlakının Dövlət siyahısına daxil edilmiş mədəni sərvət hesab olunan **1 ədəd xaç** formasında metal əşya və tarixi, bədii, muzey, etnoqrafik, arxeoloji əhəmiyyət

kəsb edən **11154 ədəd metal pul** və müxtəlif formalı predmetlər hüquqpozmanın predmeti kimi saxlanılmışdır.

Hesabat dövründə gömrük orqanları tərəfindən alkoqollu içkilərin, etil (yeyinti) spirtinin və tütün məmulatlarının idxalı zamanı vergidən yayınma və aksiz markalarının tətbiqi qaydalarının pozulması hallarının qarşısının alınması üçün həyata keçirilmiş qətiyyətli tədbirlər nəticəsində **aksiz markasız və ya digər qanunsuz yollarla** ölkəyə gətirilməsinə cəhd göstərilən 907737 manat dəyərində **4 092 638 ədəd xaricdə istehsal olunan siqaretlər**, 17389 manat dəyərində 235 litrdən çox spirtli içki saxlanılmışdır.

2022-ci ildə digər **hüquq-mühafizə və dövlət orqanları ilə sıx əməkdaşlıq** şəraitində bir sıra birgə əməliyyat-axtarış tədbirləri həyata keçirilmişdir:

- gömrük orqanlarına daxil olmuş əməliyyat məlumatları əsasında Dövlət Sərhəd Xidməti ilə birgə həyata keçirilmiş 2 əməliyyat-axtarış tədbiri nəticəsində 7 kq 782 qram heroin, 2 kq 129 qram tiryək, 4 kq 390 qram marixuana, 72 qram metadon narkotik vasitəsi, 4 kq 85 qram metamfetamin psixotrop maddəsi aşkar edilərək qanunsuz dövriyyədən çıxarılmışdır. Dövlət Sərhəd Xidməti ilə həyata keçirilmiş digər əməliyyat-axtarış tədbirləri nəticəsində dövlət sərhədini qanunsuz keçmiş 3 Əfqanıstan və 1 İran vətəndaşı tutularaq barələrində müvafiq tədbir görülmüşdür.
- gömrük orqanları Daxili İşlər Nazirliyinin əməkdaşları ilə 3 birgə əməliyyat-axtarış tədbirləri həyata keçirmişdir. Birgə əməliyyat-axtarış tədbirləri nəticəsində 3 nəfər Azərbaycan Respublikası vətəndaşı saxlanılmaqla ümumilikdə 5 kq 42 qram həşiş, 1 kq 600 qram heroin və 8 qram metadon narkotik vasitəsi aşkar edilərək qanunsuz dövriyyədən çıxarılmışdır.

### 13.2. Əməliyyat tədbirləri

Hesabat dövründə Komitənin Əməliyyat idarəsinin icraatında ümumilikdə 66 axtarış işi olmuşdur. Barələrində axtarış elan edilən 10 nəfər şəxslə bağlı zəruri əməliyyat-axtarış tədbirləri həyata keçirilərək onların yeri müəyyən edilmiş və istintaq orqanına gətirilməsi təmin edilmişdir;

- icraatda olan axtarış işi obyektlərinin öyrənilməsi üzrə tədbirlər çərçivəsində 51 nəfər şəxsin ölkə ərazisindən kənarda olması, 5 nəfər şəxsin isə ölkə ərazisində gizlənməsi müəyyən edilmişdir;
- 29 nəfər şəxs İnterpol vasitəsilə beynəlxalq axtarışa verilmişdir;
- 1 nəfər şəxsin İnterpol vasitəsilə Bolqarıstan Respublikasından Azərbaycan Respublikasına ekstradisiyası təmin edilmişdir;
- barəsində məcburi gətirilmə barədə qərar çıxarılmış və əməliyyat tapşırıqları ilə bağlı 42 nəfər şəxsin müəyyən edilərək istintaq orqanına təhvil verilməsi təmin edilmişdir;
- istintaq orqanından daxil olmuş 110 əməliyyat tapşırığı üzrə əməliyyat-axtarış tədbirləri həyata keçirilmişdir;
- əməliyyat məlumatları əsasında həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində 23 cinayət xarakterli fakt aşkar edilmişdir.

2022-ci ildə **İstintaq və təhqiqat idarəsində** 2021-ci ildən qalmış **3**, hesabat dövründə daxil olmuş **143** olmaqla, cəmi **146** material araşdırılmış, həmin materiallar üzrə **118** cinayət işi başlanılmışdır ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə **3** cinayət işi və ya **2,6 %** çoxdur.

2022-ci ildə başlanmış cinayət işlərinin **16 faizi** (19 cinayət işi) **ağır**, **77 faizi** (91 cinayət işi) **az ağır**, **7 faizi** (8 cinayət işi) isə **böyük ictimai təhlükə törətməyən** cinayətlər kateqoriyasına aid olmuşdur.

Hesabat dövründə idarənin icraatında olmuş qalan 28 materialdan **13-ü** üzrə cinayət işinin başlanılması Azərbaycan Respublikası CPM-nin 39.1.1 və 39.1.2-ci maddələrinə, **2-si** üzrə Azərbaycan Respublikası CPM-nin 40.4-cü maddəsinə əsasən rədd edilmiş, **1-i** icraatda olan digər materiala əlavə edilmiş, **6-sı** aidiyyəti üzrə göndərilmiş, **6-sı** üzrə isə araşdırma başa çatdırılmamış və növbəti ilə qalıq qalmışdır.

2022-ci ildə İstintaq və təhqiqat idarəsinin icraatında cəmi **332 cinayət işi** istintaq edilmişdir ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə **111 cinayət işi** və ya **50 %** çoxdur. Həmin cinayət işlərindən **118-i** hesabat dövründə başlanılmış, **39-u** ötən ildən qalmış, **35-i** başqa cinayət işlərindən ayrılmış, **125-nin** icraatı təzələnmiş, **12-si** prokuror tərəfindən əlavə istintaqa qaytarılmış və **3-ü** isə digər orqanlardan daxil olmuşdur.

2022-ci ildə idarənin icraatında olmuş **332** cinayət işindən **118** cinayət işi ittiham aktları ilə birlikdə ibtidai araşdırmaya rəhbərlik edən prokurora göndərilmiş, həmin işlərdən **106-sı** üzrə ittiham aktı təsdiq edilərək cinayət işləri baxılması üçün aidiyyəti məhkəmə orqanlarına verilmiş, **12** cinayət işi əlavə istintaq aparılması üçün istintaq orqanına qaytarılmış, **63** cinayət işinin icraatı dayandırılmış, **103** cinayət işinin icraatına xitam verilmiş**, 15** cinayət işi istintaq aidiyyəti üzrə digər orqanlara göndərilmiş, **9** cinayət işi icraatda olan digər cinayət işlərinə birləşdirilmiş, **24** cinayət işi hesabat dövrünün sonuna icraatda qalmışdır.

Hesabat dövründə istintaqı tamamlanmış cinayət işləri üzrə **128** nəfər təqsirləndirilən şəxs qismində cəlb edilmiş, təqsirləndirilən şəxslərdən **68** nəfər barəsində məhkəmə tərəfindən həbs qətimkan tədbiri, **7** nəfər barəsində məhkəmə tərəfindən ev dustaqlığı qətimkan tədbiri, qalan **53** nəfər barəsində isə istintaq orqanı tərəfindən həbslə bağlı olmayan digər qətimkan tədbirləri seçilmişdir.

2022-ci ilin yanvar-dekabr ayları ərzində icraatına xitam verilmiş **7 cinayət işi** üzrə 265195,24 manat, **4 material** üzrə 944821,93 manat və istintaqı tamamlanaraq baxılması üçün məhkəməyə göndərilmiş **1 cinayət işi** üzrə qismən 50000 manat olmaqla ümumilikdə **1260017,17 manat** məbləğində dövlət mülkiyyətinə vurulmuş ziyanın ödənilməsi təmin edilmişdir.

Hesabat dövründə icraatda olan cinayət işləri üzrə **83 şəxs** Azərbaycan Respublikası CPM-nin 148-ci maddəsinə əsasən tutulmuş, onlardan **63-ü** barəsində məhkəmə tərəfindən həbs, **4-ü** barəsində ev dustaqlığı qətimkan tədbiri seçilmiş, **8-i** gələcəkdə həbsdə saxlamaq üçün zərurət olmadığına görə, **8-i** isə şübhə təsdiq edilmədiyinə görə istintaq orqanı tərəfindən müvəqqəti saxlama yerindən azad edilmişdir.

Hesabat dövründə idarənin müstəntiqləri tərəfindən cinayətlərin törədilməsinə şərait yaradan halların aradan qaldırılması məqsədilə tədbirlər görülməsi üçün **14 təqdimat** verilmişdir.

2022-ci ildə **11** korrupsiya faktı və vəzifə cinayəti aşkar edilərək toplanmış materiallar hüquqi qiymət verilməsi üçün aidiyyəti üzrə göndərilmişdir.

Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində həyata keçirilən humanitar minatəmizləmə fəaliyyətinə dəstək məqsədilə Dövlət Gömrük Komitəsi tərəfindən Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinə (ANAMA) 17 oktyabr tarixində 5 baş xüsusi təlim keçmiş it (onlara dair qeydiyyat sertifikatları, aksesuar və daşınma qəfəsləri ilə birlikdə) ianə edilmişdir.

### 13.3. Hüquqpozmalarla mübarizədə beynəlxalq əməkdaşlıq tədbirləri

Müasir dövrdə gömrük hüquqpozmalarının hazırlanması və törədilməsinin ən azı 2 və daha çox dövlətin ərazisində baş verməsi səbəbindən həmin hüquqpozmalarla səmərəli mübarizədə **beynəlxalq əməkdaşlığın** əhəmiyyəti nəzərə alınmaqla Komitə tərəfindən **2022-ci il ərzində** bir sıra tədbirlər həyata keçirilmişdir.

Belə ki, əməliyyat, araşdırma və təhqiqat, eləcə də gömrük orqanlarının hüquq-mühafizə fəaliyyətinin digər istiqamətlərini əhatə edən xarici ölkələrin və beynəlxalq təşkilatların sorğuları icra olunmuş və bu sahə üzrə qarşı tərəfə analoji və digər sorğular göndərilərək müvafiq cavablar alınmışdır. Məlumat-sorğu mübadiləsi Türkiyə Respublikası, Rusiya Federasiyası, Gürcüstan, Ukrayna, Çin Xalq Respublikası, Qazaxıstan Respublikası, Qırğız Respublikası, Türkmənistan, Birləşmiş Ərəb Əmirlikləri, Finlandiya Respublikasının, Almaniya Federativ Respublikasının, Danimarka Krallığının, Çex Respublikasının və digər ölkələrin gömrük və digər müvafiq səlahiyyətli dövlət qurumları ilə aparılmışdır.

**BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi ilə əməkdaşlıq:**

Transmilli Mütəşəkkil Cinayətkarlıq əleyhinə Konvensiyasının müvafiq bəndinə əsasən 4-5 may tarixlərində Vyanada keçirilmiş Konvensiyaya Tərəf Dövlətlərin Konfransının Odlu silahlar üzrə İşçi qrupunun 9-cu sessiyasında və BMT-nin 14-18 mart tarixlərində keçirilən Narkotik Vasitələr üzrə Komissiyasının 65-ci sessiyasında Komitə əməkdaşları virtual formatda iştirak etmişlər.

**Ümumdünya Gömrük Təşkilatı ilə əməkdaşlıq:**

- 10-23 may 2022-ci il tarixlərində strateji ticarət mallarının (hərbi təyinatlı və ikili təyinatlı mallar) qanunsuz dövriyyəsinə qarşı yönəlmiş “Cosmo Mərkəzi Asiya” birgə gömrük əməliyyatında,
- Ümumdünya Gömrük Təşkilatının Hüquq Mühafizə Komitəsinin 42-ci Sessiyasının (sənəd əsaslı birinci mərhələ: 28 fevral - 14 mart 2022-ci il və virtual iştiraka əsaslanan ikinci mərhələ: 28 mart - 1 aprel 2022-ci il) işində Komitə əməkdaşları iştirak etmişlər.
- 09.05.2022-08.07.2022-ci il tarixlərində keçirilən və alkoqollu məhsulların qanunsuz çatdırılmasının müəyyən edilməsi və qarşısının alınmasına yönəlmiş “Doubleton” əməliyyatında Komitə əməkdaşlarının iştirakı davam etdirilir.

**Ümumdünya Gömrük Təşkilatının regional məlumat əlaqələndirmə qovşağı-RILO-Moskva ilə əməkdaşlıq:**

RILO-Moskvanın məlumat-analitik bülleteninin hazırlanması məqsədilə Azərbaycan Respublikası gömrük orqanları tərəfindən 2021-ci ildə aşkar olunmuş tütün məmulatlarının qanunsuz dövriyyəsi, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi, 2020-2021-ci illər ərzində aşkar olunmuş narkotik vasitələrin və psixotrop maddələrin prekursorlarının qanunsuz dövriyyəsi faktları barədə məlumat qarşı tərəfə təqdim edilmişdir. 1-2 noyabr tarixlərində ÜGT-nin Potensialın Gücləndirilməsi üzrə Bakıdakı Avropa Regional Ofisində Ümumdünya Gömrük Təşkilatının hüquq-mühafizə fəaliyyəti üzrə regional məlumat əlaqələndirmə qovşağı RILO-Moskvanın Müstəqil Dövlətlər Birliyi iştirakçı ölkələrinin gömrük xidmətlərinin milli əlaqələndirmə qovşaqları rəhbərlərinin 21-ci iclası keçirilmiş və Dövlət Gömrük Komitəsi nümayəndələrinin həmin iclasda iştirakı təmin edilmişdir.

**ABŞ Ədliyyə Nazirliyi Narkotiklərlə Mübarizə Administrasiyası (DEA) ilə əməkdaşlıq:**

- aşkar edilmiş böyük həcmdə narkotik saxlanmasına dair məlumatlar qarşı tərəfə təqdim edilmiş və qarşı tərəfdən müvafiq məlumatlar, eləcə də narkotiklərin qanunsuz dövriyyəsi ilə əlaqədar istiqamətləndirici məlumatlar daxil olmuş;

- DEA əməkdaşları ilə bir neçə dəfə görüşlər keçirilərək qarşılıqlı məlumat və fikir mübadiləsi aparılmış, əməkdaşlığın daha da genişləndirilməsi imkanları nəzərdən keçirilmiş;

- DEA tərəfindən Dövlət Gömrük Komitəsinə müxtəlif növlü narkotiklərin təyin edilməsi üçün 242 qutu və 12 ədəd narkotest dəstləri bağışlanmışdır.

**Avropa Birliyi ilə əməkdaşlıq:**

- Avropa Birliyinin Hüquq Mühafizə Təlimləri üzrə Agentliyinin müvafiq layihəsi çərçivəsində Macarıstanın Budapeşt şəhərində keçirilmiş “Transsərhəd əməkdaşlığı, qeyri-qanuni miqrasiya, insan hüquqlarına uyğun müsahibə üsulları” mövzusundakı təlim və “Mütəşəkkil Cinayətkarlığa qarşı Təlim və Əməliyyat Tərəfdaşlığı” (“TOPCOP”) layihəsi çərçivəsində 27 iyun - 1 iyul tarixlərində Buxarest şəhərində keçirilmiş “Narkotik vasitələrin qaçaqmalçılığı-sintetik narkotik vasitələr” mövzusunda subregional təlimdə və həmin layihə çərçivəsində 6 aprel 2022-ci il tarixdə keçirilmiş “Narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı istintaq” mövzusundakı onlayn vebinarda Komitə əməkdaşları iştirak etmişlər.

**İnterpolla əməkdaşlıq:**

- 27 yanvar 2022-ci il tarixdə Qara Dəniz, Qafqaz və Mərkəzi Asiya regionlarını əhatə edən “Geiger” layihəsi çərçivəsindəki işçi qrupun təhlil alt-qrupunun videokonfrans formatında keçirilmiş görüşündə və 24 yanvar 2022-ci il tarixdə virtual formada keçirilmiş “Pangea XIV” əməliyyatı üzrə iclasda;

- 23-30 iyun 2022-ci il tarixləri arasında keçirilmiş və saxta dərman vasitələrinin qanunsuz dövriyyəsinə qarşı yönəlmiş “PANGEA XV” əməliyyatında Komitənin əməkdaşları iştirak etmişlər.

**Mərkəzi Asiya Regional İnformasiya Əlaqələndirmə Mərkəzi (MARİƏM) ilə əməkdaşlıq:**

Azərbaycan Respublikası gömrük orqanları tərəfindən 2020 və 2021-ci illər ərzində narkotik vasitələrin və psixotrop maddələrin aşkar olunması və götürülməsi faktları üzrə məlumat qarşı tərəfə təqdim edilmiş və qarşı tərəfdən mütəmadi əsasda MARİƏM-ə üzv  olan və digər ölkələrdə narkotik vasitələrin və psixotrop maddəllərin aşkar olunmasına dair məlumatlar alınaraq xidməti fəaliyyətdə istifadə olunmuşdur.

**Müstəqil Dövlətlər Birliyi Gömrük Xidmətləri Rəhbərləri Şurasının Hüquq-Mühafizə Bölmələri Başçıları Komitəsi ilə əməkdaşlıq:**

- 21-23 iyun 2022-ci il tarixlərində Belarus Respublikasının Minsk şəhərində keçirilmiş MDB GXRŞ HMBBK-nın və onun işçi qruplarının iclaslarında,

- 15.12.2021-15.01.2022-ci il tarixlərində keçirilmiş və yüksək dəyərə malik malların, valyuta sərvətlərinin, tütün məhsullarının, CITES obyektlərinin, mədəni sərvətlərin, silah və sursatın qanunsuz dövriyyəsinin, eləcə də dövriyyəsi məhdudlaşdırılmış və ya qadağan olunmuş digər malların hava nəqliyyatı ilə beynəlxalq sərnişin daşıma kanallarında müəyyən edilməsi və qarşısının alınmasına yönəlmiş “Qamma” beynəlxalq xüsusi gömrük əməliyyatında.

**Konteyner Daşınmalarına Nəzarət üzrə Qlobal Proqram üzrə:**

- Gömrük orqanı əməkdaşları həmin Proqram çərçivəsində 15-16 mart tarixlərində Daşkənd şəhərində keçirilən və Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi və Ümumdünya Gömrük Təşkilatının birgə layihəsi olan “Konteynerlərə Nəzarət üzrə Qlobal Proqram” çərçivəsində Gömrük xidmətləri və liman nəzarət qruplarının regionlararası şəbəkəsinin (IREN) ekspertlər səviyyəsindəki iclasında (iclasda müvafiq tövsiyələr qəbul edilmişdir) və Gömrük Administrasiyalarının rəhbərlərinin 25-26 may 2022-ci il tarixlərində Düşənbə şəhərində (Tacikistan Respublikası) keçirilmiş yeddinci İllik Regionlararası iclasında

(iclasın sonunda tövsiyə xarakterli birgə bəyannamə qəbul edilmişdir), 20-24 iyun 2022-ci il tarixlərində keçirilən “Kurık” dəniz limanı (Qazaxıstan Respublikası) və Ələtdəki "Beynəlxalq Dəniz Ticarət Limanı" (Azərbaycan Respublikası) arasında yük və sərnişin bərə nəqliyyatının işini əhatə edən birgə praktiki təlimdə, 23-27 may 2022-ci il tarixlərində ÜGT-nin Potensialın Gücləndirilməsi üzrə Bakıdakı Avropa Regional Ofisində keçirilmiş strateji ticarət və ixrac nəzarətinə dair təlimdə, 8-12 avqust tarixlərində Bakı və Batumi şəhərlərində keçirilmiş “Strateji ticarət və ixrac nəzarəti” üzrə praktiki regional təlimdə, 22-26 avqust tarixlərində ÜGT-nin Potensialın Gücləndirilməsi üzrə Bakıdakı Avropa Regional Ofisində “Strateji ticarət, cinayət üzrə əməliyyat məlumatı, tranzit və bir nəqliyyat vasitəsindən digərinə malların yüklənməsi ilə bağlı fırıldaqçılıq və ixrac nəzarəti”nə dair təlimdə Komitə əməkdaşları iştirak etmişlər. Proqram çərçivəsində 2022-ci ildə Astara və Ələtdə fəaliyyət göstərən nəzarət qruplarının istifadəsi üçün nəzərdə tutulmuş 1131 ABŞ dolları dəyərində 3 narkotest dəsti, 3 prekursor test dəsti və 6 cib test dəsti Dövlət Gömrük Komitəsinə təhvil verilmişdir.

**Türkiyə Respublikası Ticarət Nazirliyi ilə əməkdaşlıq:**

“Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və Türkiyə Respublikasının Ticarət Nazirliyi arasında 2021/2022-ci illər üzrə gömrük işi sahəsində əməkdaşlığın və qarşılıqlı yardımın səmərəliliyinin yüksəldilməsinə dair tədbirlər planı” çərçivəsində Türkiyə tərəfinə Azərbaycan Respublikası gömrük orqanları tərəfindən 2021-ci ilin ikinci yarısında və 2022-ci ilin ilk yarısında aşkar edilmiş narkotiklərin xüsusilə külli miqdarda qanunsuz dövriyyəsi faktları barədə məlumat təqdim edilmiş və qarşı tərəfdən analoji məlumat alınmış, araşdırma materialları ilə əlaqədar sorğular göndərilərək qarşı tərəfdən daxil olan sorğular cavablandırılmışdır.

**Beynəlxalq məlumat mübadiləsi sistemləri üzrə:**

“CEN” (Gömrük hüquq mühafizə şəbəkəsi), “Containercomm”, “Global Shield” (Qlobal Qalxan), “RILO CIS Operational Platform” (RILO MDB ölkələri əməliyyat platformu) və PICS (narkotik vasitələrin və psixotrop maddələrin prekursorlarının qanunsuz dövriyyəsinin aşkar edilməsi faktları üzrə məlumat mübadiləsi sistemi) sistemləri ilə iş aparılaraq müvafiq məlumatların mübadiləsi təmin edilmişdir.

## 14. Beynəlxalq əməkdaşlıq

2022-ci il ərzində gömrük işi sahəsində beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi və genişləndirilməsi məqsədilə digər ölkələrin gömrük orqanları ilə saziş, protokol, momorandum və növbəti illəri əhatə edən fəaliyyət və tədbirlər planları imzalanmışdır.

– 10 fevral 2022-ci il tarixdə Bakı şəhərində “Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və Pakistan İslam Respublikası Federal Gəlirlər Şurasının Gömrük Xidməti arasında 2022/2023-cü illər üzrə gömrük işi sahəsində əməkdaşlığın və qarşılıqlı yardımın səmərəliliyinin yüksəldilməsinə dair Tədbirlər Planı” imzalanmışdır.

– 12 mart 2022-ci il tarixdə “14 iyun 2017-ci il tarixli Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Qırğız Respublikası Hökuməti yanında Dövlət Gömrük Xidməti arasında kadrların peşəkar hazırlığı və ixtisasının artırılması sahəsində əməkdaşlıq haqqında Protokolun həyata keçirilməsi üzrə 2022-2023-cü illər üçün Fəaliyyət Planı” diplomatik kanallarla məktub mübadiləsi vasitəsilə imzalanmışdır.

– 16 mart 2022-ci il tarixdə Bakı şəhərində “Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında malların mənşəyinin sertifikatlaşdırılmasının elektron sisteminin qarşılıqlı tətbiqi haqqında Protokol” imzalanmışdır.

– 26 aprel 2022-ci il tarixdə Bakı şəhərində “Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Federal Gömrük Xidməti (Rusiya Federasiyası) arasında müəyyən növ mallara münasibətdə gömrük nəzarətinin nəticələrinin elektron qaydada qarşılıqlı tanınması haqqında Protokol çərçivəsində qarşılıqlı informasiya fəaliyyətinin Texniki şərtləri” imzalanmışdır.

– 10 may 2022-ci il tarixdə İran İslam Respublikasının Culfa şəhərində “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi ilə İran İslam Respublikası Gömrük İdarəsi arasında 2022-2023-cü illərdə gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardımın genişləndirilməsinə dair Tədbirlər Planı” imzalanmışdır.

– 1 iyun 2022-ci il tarixdə Bakı şəhərində “Azərbaycan Respublikası DGK və Özbəkistan Respublikası DGK arasında 2022-2023-cü illər üzrə qarşılıqlı Fəaliyyət Planı” imzalanmışdır.

– 10 iyun 2022-ci il tarixdə Bakı şəhərində “Dövlət Gömrük Komitəsi ilə təmsil olunan Azərbaycan Respublikasının Hökuməti və Birləşmiş Millətlər Təşkilatının Terrorla Mübarizə İdarəsi ilə təmsil olunan Birləşmiş Millətlər Təşkilatı arasında Anlaşma Memorandumu” onlayn formatda imzalanmışdır.

– 18 avqust 2022-ci il tarixdə Bakı şəhərində “Azərbaycan Respublikası Hökuməti, Gürcüstan Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi çərçivəsində tranzit gömrük prosedurlarının asanlaşdırılması üçün ilkin məlumat mübadiləsinə dair Saziş” imzalanmışdır.

– 22 avqust 2022-ci il tarixdə Tehran şəhərində “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi, Federal Gömrük Xidməti (Rusiya Federasiyası) və İran İslam Respublikasının Gömrük İdarəsi arasında tranzitin asanlaşdırılması üzrə Anlaşma Memorandumu” imzalanmışdır.

– 11 noyabr 2022-ci il tarixdə Səmərqənd şəhərində “Türk Dövlətləri Təşkilatının Hökumətləri arasında sadələşdirilmiş gömrük dəhlizinin yaradılması haqqında Saziş” imzalanmışdır.

– 17 noyabr 2022-ci il tarixdə Bakı şəhərində “Azərbaycan Respublikasının Hökuməti ilə Rusiya Federasiyasının Hökuməti arasında fiziki şəxslər tərəfindən nağd pul vəsaitlərinin və (və ya) pul alətlərinin transsərhəd hərəkəti zamanı cinayət yolu ilə əldə edilmiş gəlirlərin leqallaşdırılması (yuyulması) və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində informasiya əməkdaşlığı haqqında Saziş” imzalanmışdır.

– 6 dekabr 2022-ci il tarixdə Manama şəhərində ÜGT-nin Siyasi Komissiyasının 87-ci sessiyası çərçivəsində “Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Bəhreyn Krallığının Gömrük Xidməti arasında gömrük əməkdaşlığı haqqında Anlaşma Memorandumu” imzalanmışdır.

– 14 dekabr 2022-ci il tarixdə Türkmənbaşı şəhərində “Azərbaycan Respublikası Hökuməti, Türkiyə Respublikası Hökuməti və Türkmənistan Hökuməti arasında gömrük əməkdaşlığı üzrə Birgə Məşvərət Komissiyasının yaradılması haqqında Anlaşma Memorandumu” imzalanmışdır.

– 16 dekabr 2022-ci il tarixdə “Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Qazaxıstan Respublikasının Maliyyə Nazirliyi arasında mallar və nəqliyyat vasitələri haqqında ilkin məlumatların mübadiləsinin Texniki Şərtləri” məktub mübadiləsi yolu ilə imzalanmışdır.

“Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi ilə Federal Gömrük Xidməti (Rusiya Federasiyası) arasında Azərbaycan-Rusiya dövlət sərhədindəki avtomobil buraxılış məntəqələrində gözlənilməz halların xəbərdar edilməsi və nəticələrinin aradan qaldırılması sahəsində qarşılıqlı fəaliyyət haqqında Saziş” layihəsinin Rusiya tərəfindən düzəlişlər edilmiş mətni aidiyyəti dövlət strukturlarının münasibətinin bildirilməsi üçün Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilmişdir. “Azərbaycan Respublikası və Rusiya Federasiyası əraziləri arasında daşınan mallara və Azərbaycan Respublikası və Rusiya Federasiyası əraziləri arasında yük daşımalarını həyata keçirən nəqliyyat vasitələrinə münasibətdə gömrük və dövlət nəzarətinin digər növlərinin həyata keçirilməsi sahəsində əməkdaşlıq haqqında Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında Saziş” layihəsi və ona dair aidiyyəti dövlət qurumlarından alınmış rəy və təkliflər münasibət bildirilməsi üçün, “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi ilə Qırğız Respublikası Maliyyə Nazirliyi yanında Dövlət Gömrük Xidməti arasında qarşılıqlı ticarətin statistikasına dair məlumat mübadiləsi sahəsində əməkdaşlıq haqqında Protokol”un “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Pakistan İslam Respublikasının Federal Gəlirlər Şurasının Gömrük Xidməti arasında Elektron Məlumat Mübadiləsi haqqında Anlaşma Memorandumu”nun, “Azərbaycan Respublikası Hökuməti ilə Banqladeş Xalq Respublikası Hökuməti arasında gömrük məsələləri üzrə əməkdaşlıq və qarşılıqlı inzibati yardım haqqında Saziş”in və “Azərbaycan Respublikası Hökuməti ilə Meksika Birləşmiş Ştatları Hökuməti arasında gömrük məsələlərində əməkdaşlıq və qarşılıqlı inzibati yardım haqqında Saziş”in layihələri qarşı tərəfə təqdim olunması üçün Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilmişdir.

“Azərbaycan Respublikası Hökuməti ilə Hindistan Respublikası Hökuməti arasında gömrük məsələlərində qarşılıqlı inzibati yardım və əməkdaşlıq haqqında Saziş” layihəsinin mətni ona edilmiş dəyişikliklərin razılaşdırılması məqsədilə “Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və Vyetnam Sosialist Respublikasının Baş Gömrük İdarəsi arasında qarşılıqlı ticarətin gömrük statistikasına dair məlumatların mübadiləsi sahəsində əməkdaşlıq haqqında Protokol”un və “Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında malların mənşəyinin sertifikatlaşdırılmasının elektron sisteminin qarşılıqlı tətbiqi haqqında Protokol”un layihələri isə münasibət bildirilməsi üçün işçi qaydada qarşı tərəfə göndərilmişdir.

Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq konvensiyalara və gömrük işi sahəsində imzalanmış ikitərəfli sazişlərə müvafiq olaraq, 2022-ci il ərzində xarici ölkələrin gömrük xidmətlərinə gömrük işi sahəsində inzibati yardım göstərilməsi məqsədilə 253 sorğu göndərilmişdir. Hesabat dövründə 11 beynəlxalq regional tədbirdə Komitənin nümayəndələri iştirak etmiş, Komitə rəhbərliyi tərəfindən 35 görüş keçirilmişdir.

Ümumdünya Gömrük Təşkilatı, BMT, MDB üzv dövlətlərinin Gömrük Xidməti Rəhbərləri Şurası, Demokratiya və İqtisadi İnkişaf naminə Təşkilat – GUAM-ın Ticarətə və Nəqletməyə yardım layihəsinin Rəhbəredici Komitəsi, Asiya İnkişaf Bankı tərəfindən maliyyələşdirilən Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq Proqramının Gömrük Əməkdaşlıq Komitəsi, Türk Dövlətləri Təşkilatı və digər nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlığın genişləndirilməsi istiqamətində məqsədyönlü addımlar atılmışdır.

## 15. Gömrük inzibatçılığı

### 15.1. Qanunvericiliyin təkmilləşdirilməsi

2022-ci ildə Dövlət Gömrük Komitəsi tərəfindən qanunvericiliyin təkmilləşdirilməsi məqsədilə qanun, fərman, sərəncam və qərar layihələri hazırlanaraq aidiyyəti üzrə təqdim edilmiş və təsdiq edilmişdir.

**Aidiyyəti üzrə təqdim edilmiş və təsdiq edilmiş qanun, fərman layihələri:**

**Qanun layihələri:**

- “Azərbaycan Respublikası Gömrük Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının Qanunu layihəsi və bu Qanunun tətbiqi ilə bağlı digər əlavə layihələr.

**Fərman layihələri:**

- “Xidməti silah saxlamaq, gəzdirmək və təyinatı üzrə istifadə etmək hüququ olan Azərbaycan Respublikası gömrük orqanlarının vəzifəli şəxslərinin Siyahısı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 3 may 2019-cu il tarixli 675 nömrəli Fərmanına dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanı layihəsi;
- Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 21 dekabr tarixli 837 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti hesabına saxlanılan gömrük orqanlarının vəzifəli şəxslərinin və Dövlət Gömrük Komitəsi sisteminə işə götürülən digər işçilərin ştat sayı həddi”ndə dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı layihəsi.

**Təsdiq edilmiş və qüvvəyə minmiş qanun, fərman və qərar layihələri:**

**Fərman layihələri:**

- “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi haqqında Əsasnamənin və Komitənin strukturunun təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 iyun tarixli 646 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin Fərmanı;
- Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı;
- Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı;
- “Azərbaycan Respublikasının gömrük orqanlarında ali xüsusi rütbəli vəzifələrin siyahısı”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 10 dekabr tarixli 155 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı.

**Sərəncam layihəsi:**

- “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi kollegiyasının tərkibinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 1995-ci il 1 may tarixli 170 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı.

**Qərar layihəsi:**

- “Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 oktyabr tarixli 437 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin hesabına köçürülən vəsaitlərdən istifadə Qaydası”nda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı;

- “Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 oktyabr tarixli 437 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin hesabına köçürülən vəsaitlərdən istifadə Qaydası”nda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 21 aprel tarixli 170 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Nazirlər Kabinetinin Qərarı;

- Azərbaycan Respublikası Vergi Məcəlləsinə edilmiş dəyişikliklərə əsasən yeni aksizli malların və yeni aksiz vergisi dərəcələrinin tətbiqi ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri”ndə dəyişikliklər edilməsi və Azərbaycan Respublikasının ərazisinə gətirilən aksiz vergisinə cəlb olunan malların aksiz dərəcələrinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 19 yanvar 2001-ci il tarixli 20 nömrəli Qərarında dəyişikliklər edilməsi barədə Nazirlər Kabinetinin Qərarı;

- Azərbaycan Respublikası Prezidentinin 27 dekabr 2018-ci il tarixli 852 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizliyinə dair 2019-2023-cü illər üçün Dövlət Proqramı”nın həyata keçirilməsi üzrə Tədbirlər Planı”nın 7.3.3.2-ci yarımbəndinin icrasının təmin edilməsi məqsədilə elektrik avtomobillərinin xarici iqtisadi fəaliyyətin mal nomenklaturası (bundan sonra XİFMN) üzrə yeni kodlarının müəyyən olunması və onların idxal gömrük rüsum dərəcələrində dəyişiklik edilməsinə dair layihə.




Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Kollegiyasının 26 yanvar 2022-ci il tarixli 1000/01/003 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Kollegiyasının 5 iyul 2012-ci il tarixli 100/02/001 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası gömrük orqanlarının vəzifəli şəxslərinin xüsusi geyim formasının daşınması Qaydaları”nda dəyişiklik” Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilmək üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə

təqdim olunmuş və Ədliyyə Nazirliyində Hüquqi Aktların Dövlət Reyestrinə 26 yanvar 2022-ci il tarixdə 15202201261003 nömrə ilə daxil edilmişdir.

"Azərbaycan Respublikası Nazirlər Kabinetinin 17 noyabr 2017-ci il tarixli 500 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 10 noyabr 2022-ci il tarixli 411 nömrəli Qərarı ilə yalnız elektrik mühərriklə hərəkətə gətirilən zavod buraxılış tarixdən 3 ilədək ötmüş minik avtomobillərinin, eləcə də elektrik mühərrikli avtomobillər üçün ikinci və üçüncü səviyyə elektrik enerji doldurucularının idxalı zamanı gömrük rüsumlarının dərəcələri 0 faiz müəyyən edilmişdir.

### 15.2. İnsan resurslarının idarə edilməsi

2022-ci il ərzində Dövlət Gömrük Komitəsinin müvafiq sərəncamları ilə gömrük orqanlarının vəzifəli şəxslərinin peşə və ixtisas biliklərini artırmaq və onların peşəkarlıq səviyyəsinin yüksəldilməsini təmin etmək məqsədilə müxtəlif mövzularda 30 təlim keçirilmişdir. Təlimlərdə ümumilikdə 576 nəfər gömrük əməkdaşı iştirak etmişdir.

| № | Təlimin istiqaməti | Təlimin sayı | İştirakçı sayı |
|---|---|---|---|
| 1. | Texniki nəzarət vasitələrinin istismarı və təhlükəsizlik qaydaları | 4 | 66 |
| 2. | Mədəni sərvətlərin və saxta xalça məhsullarının müəyyən edilməsi | 2 | 40 |
| 3. | Avtonəqliyyat vasitələrindən atmosfer havasına atılan zərərli maddələr üzrə AVRO-4 ekoloji normaları | 1 | 32 |
| 4. | İşgüzar ingilis dili bacarıqlarının artırılması | 1 | 15 |
| 5. | Malların xarici iqtisadi fəaliyyətin mal nomenklaturası üzrə düzgün sinifləşdirilməsi | 3 | 16 |
| 6. | Konteyner daşımalarına nəzarət | 3 | 24 |
| 7. | Hüquq-mühafizə fəaliyyəti | 8 | 207 |
| 8. | Əqli mülkiyyət hüquqlarının qorunması | 1 | 23 |
| 9. | İxraca nəzarət | 1 | 11 |
| 10. | Əhali ilə işləmə və ünsiyyət qurma | 1 | 23 |
| 11. | Gömrük orqanlarının vəzifəli şəxslərinin ixtisasartırması | 1 | 50 |
| 12. | Gömrük yoxlamalarının asanlaşdırılması | 1 | 7 |
| 13. | İnkişaf etməkdə olan ölkələrdə gömrük idarəçiliyi | 1 | 14 |
| 14. | Harmonik Sistem | 1 | 27 |
| 15. | Sərnişinlərə dair ilkin məlumat (API) və sərnişin adlarının qeydiyyatı (PNR) sistemlərinin tətbiqi | 1 | 21 |

Təqaüdə çıxmış 321 sabiq gömrük orqanı əməkdaşı barəsində məlumat vərəqələri tərtib edilmiş və Dövlət Sosial Müdafiə Fonduna göndərilmiş və Komitənin təqaüdə çıxan bir sıra əməkdaşlarına "əmək veteranı" adının və vəsiqəsinin verilməsi təmin edilmişdir.

Komitə əməkdaşlarının potensial intellektini aşkara çıxarmaq və qiymətləndirmək, şəxsi heyətin motivasiyasını yüksəltmək və komanda ruhunu möhkəmləndirmək məqsədilə "Zəfər Günü"nə həsr olunmuş "Breyn rinq" intellektual oyunu keçirilmişdir. Komitə sisteminə daxil olan qurumlar arasında keçirilən oyunda ümumilikdə 34 komanda iştirak etmişdir. Oyunun final mərhələsində 11 komanda iştirak etmiş və ilk 3 yerə layiq görülmüş komandalar mükafatlandırılmış və sertifikatlarla təltif olunmuşdur.

Komitənin ərazi və ixtisaslaşdırılmış gömrük idarələrində bəzi vakant ştat vahidlərinin yaranması ilə əlaqədar olaraq, həmin vakant vəzifələrə gənc mütəxəssislərin tam aşkarlıq şəraitində, şəffaf və obyektiv prosedurlar əsasında xidmətə qəbul edilməsi üçün Komitə tərəfindən 8 oktyabr 2022-ci il tarixdə müsabiqə elan edilmişdir. Müsabiqədə iştirak üçün **2420** vətəndaş müraciət etmiş, sənədlər araşdırılmış və tələblərə cavab verən **1909** namizəd test imtahanında iştirak etmək hüququ qazanmışdır. 18 dekabr 2022-ci il tarixdə keçirilmiş test imtahanında **1469** nəfər iştirak etmişdir. Namizədlərdən 70 və daha artıq bal toplamış **211** nəfər müsabiqənin növbəti mərhələsi olan müsahibə mərhələsində iştirak etmək hüququ qazanmışdır. Test imtahanında müvəffəqiyyət əldə etmiş 211 nəfər namizəd, habelə Azərbaycan Respublikası Prezidentinin 12 noyabr 2010-cu il tarixli 349 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Gömrük orqanlarına xidmətə qəbul ilə əlaqədar müsabiqənin keçirilməsi Qaydası"nın 1.8.2-ci və 1.8.3-cü yarımbəndlərinə əsasən müsabiqənin test imtahanı mərhələsindən azad olunmuş **107** namizəd ümumilikdə **318** namizədin müsahibə mərhələsinə dəvət olunması nəzərdə tutulmuşdur.







"Gömrük orqanlarının vəzifəli şəxslərinin vəzifədə irəli çəkilməsi işinin təkmilləşdirilməsi haqqında" sərəncamın (1000/231 nömrəli, 06.10.2022) icrasından irəli gələrək Komitədə vakant vəzifələrin şəffaflıq və obyektivlik prinsipləri əsasında tutulması, o cümlədən karyera yüksəlişində obyektivliyin təmin edilməsi məqsədilə daxili müsahibə elan edilmişdir. Müsahibədə iştirak etmək üçün 373 namizəd tərəfindən "Səriştə üzrə Anket" formaları doldurularaq təqdim edilmişdir. Anket formaları Komitədə yaradılmış müvafiq komissiya tərəfindən təhlil edilmiş və

tələblərə cavab verən 340 namizəd daxili müsabiqənin ikinci mərhələsinə – “Səriştəlilik testi” mərhələsinə iştirak hüququnu qazanmışdır. “Səriştəlilik testi” 29 oktyabr 2022-ci il tarixdə keçirilmiş və nəticədə 107 nəfər gömrük orqanı əməkdaşı müsabiqənin növbəti mərhələsinə buraxılmaq hüququ əldə etmişdir. 14 dekabr 2022-ci il tarixdə Komitədə daxili müsabiqənin “İndividual tapşırıq və təqdimat” mərhələsinə start verilmişdir.

Komitənin aparatı və strukturuna daxil olan qurumlarında kadr potensialının artırılması üçün insan resurslarının idarə edilməsi sahəsində işlərin daha da təkmilləşdirilməsi, optimallaşdırılması və mərkəzləşdirilməsi məqsədilə 2023-2025-ci illəri əhatə edən “İnsan Resurslarının İnkişaf Strategiyası” hazırlanmışdır.

Komitənin strukturunun optimallaşdırılması, əməkdaşların iş məmnunluğunun və gözləntilərinin öyrənilməsi, xidmətə qəbul və vakant vəzifələrin tutulmasının təkmilləşdirilməsi, rəhbər vəzifəli şəxslərin potensialının artırılması, vəzifələrin ümumi standartlarının hazırlanması, əməkdaşların yerdəyişməsi (rotasiya) mexanizminin və qaydalarının təkmilləşdirilməsi, əməkdaşların peşəkarlığının davamlı artırılması, xidməti fəaliyyətin qiymətləndirilməsi və nəticələrə uyğun motivasiya sisteminin qurulması, kadr məlumatlarının informasiya sisteminin təkmilləşdirilməsi, insan resurslarının idarə edilməsi sahəsində təbliğat və maarifləndirmə işlərinin gücləndirilməsi nəzərdə tutulmuşdur.

24 dekabr 2022-ci il tarixdə Komitə aparatında və Komitə sisteminə daxil olan qurumlarda gömrük orqanı əməkdaşlarının övladları üçün “Açıq qapı” günü təşkil edilmişdir. Tədbir çərçivəsində uşaqlar valideynlərinin iş fəaliyyəti ilə tanış olmuş, dünyagörüşünün artırılması istiqamətində maarifləndirici proqramda iştirak etmiş, əyləncəli oyunlara qatılmış və onlara bayram münasibəti ilə hazırlanmış xüsusi hədiyyələr təqdim edilmişdir.



## 15.3. Dövlət Gömrük Komitəsinin Akademiyası

2022-ci ilin fevral-may aylarını əhatə edən 2021/2022-ci tədris ilinin yaz semestrində tədris **hibrid** (əyani və distant) formada təşkil edilmişdir. 2022/2023-cü tədris ilinin payız semestrində isə tədris **əyani** formada həyata keçirilmişdir.

***Ümumi tələbə kontingenti*** 2022/2023-cü tədris ilinin payız semestrində Akademiyada bakalavriat səviyyəsində **553**, magistratura səviyyəsində **19** və əlavə təhsilin təkrar ali təhsil istiqaməti üzrə isə **95** tələbə olmaqla, **cəmi 667** tələbə təhsil alır. Bu göstərici keçən ilin müvafiq dövrünə görə **27.5%** faiz çoxdur (keçən il ümumi tələbə sayı **523** olmuşdur).

**Bakalavriat səviyyəsi üzrə**

| İxtisaslar | Kurslar | | | | Cəmi |
|---|---|---|---|---|---|
| | I | II | III | IV | |
| Hüquqşünaslıq | 40 | 40 | 45 | 49 | 174 |
| İqtisadiyyat | 20 | 20 | 44 | 48 | 132 |
| Beynəlxalq ticarət və logistika | 40 | 39 | 44 | | 123 |
| İnformasiya təhlükəsizliyi | 20 | 20 | 22 | 22 | 84 |
| İnformasiya texnologiyaları | 20 | 20 | | | 40 |
| **Cəmi** | 140 | 139 | 155 | 119 | **553** |

**Magistratura səviyyəsi üzrə**

| İxtisaslar/ ixtisaslaşma | Kurslar | | **Cəmi** |
|---|---|---|---|
| | I | II | |
| Dünya iqtisadiyyatı / Gömrük işi | 5 | 5 | 10 |
| Hüquqşünaslıq / Beynəlxalq iqtisadi hüquq | 4 | 5 | 9 |
| **Cəmi** | 9 | 10 | **19** |

**Əlavə təhsilin təkrar ali təhsil istiqaməti üzrə**

| İxtisaslar | Kurslar | | **Cəmi** |
|---|---|---|---|
| | I | II | |
| Hüquqşünaslıq | 25 | 20 | 45 |
| Beynəlxalq ticarət və logistika | 21 | 29 | 50 |
| **Cəmi** | 46 | 49 | **95** |

**2022-ci** ildə Akademiyadan **bakalavriat səviyyəsi üzrə 36**, **magistratura səviyyəsi üzrə 9** tələbə **məzun** olmuşdur. Tələbələrin buraxılış işlərinin müdafiəsini təşkil edən dövlət attestasiya komissiyalarının və magistrantların magistrlik dissertasiyalarının müdafiəsini təşkil edən ixtisaslaşdırılmış elmi şuralarının sədrlərinin və üzvlərinin bir hissəsi Dövlət Gömrük Komitəsinin rəhbərliyinin nümayəndələri və struktur bölmələrinin rəhbərləri olmuşdur.




2022/2023-cü tədris ili üçün Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilmiş qəbul

imtahanlarının və müsabiqənin nəticələrinə görə Dövlət Gömrük Komitəsinin Akademiyasının qəbul planı **100 faiz dolmuşdur və Akademiya ölkə üzrə qəbul planı tam dolan 6 təhsil müəssisəsindən biri olmuşdur**. Tədris ilində bakalavriat səviyyəsinə İqtisadiyyat, Hüquqşünaslıq, Beynəlxalq ticarət və logistika (tədris Azərbaycan və ingilis dillərində), İnformasiya təhlükəsizliyi və İnformasiya texnologiyaları (tədris ingilis dilində) ixtisaslarına **140** abituriyent, magistratura səviyyəsinə isə Dünya iqtisadiyyatı ixtisasının Gömrük işi və Hüquqşünaslıq ixtisasının Beynəlxalq iqtisadi hüquq ixtisaslaşmalarına **9** bakalavr qəbul edilmişdir. Bakalavriat səviyyəsinə qəbul olunmuş abituriyentlərin **29** nəfəri (**21%**) **600-dən** çox bal toplamışdır. Bakalavriat səviyyəsinə qəbul olunan 140 nəfərdən **117-si (84%),** magistratura səviyyəsinə qəbul olunan 9 nəfərdən **5-i (56%) dövlət sifarişi** əsasında təhsil alır. Bakalavriat səviyyəsinə qəbulda Akademiya üzrə ümumi keçid balı, maksimal bal, eləcə də orta bal 2021-ci ilə görə yüksəlmişdir.

2022/2023-cü tədris ilində **Akademiyada ilk dəfə olaraq** bakalavriat səviyyəsində **Beynəlxalq ticarət və logistika** və **İnformasiya texnologiyaları** ixtisasları **üzrə tədrisin ingilis dilində təşkil olunduğu** qruplara tələbələrin qəbulu həyata keçirilmişdir.

2022-ci ildə də Akademiya ixtisaslar üzrə **keçid ballarına görə ölkə ali təhsil müəssisələri arasında ilk sıralarda** yer almışdır. Belə ki, tədris ili üçün keçirilən qəbulun nəticələrinə əsasən, Akademiya ölkədə keçid ballarına görə **Beynəlxalq ticarət və logistika (tədris Azərbaycan dilində) ixtisası üzrə 1-ci**, İnformasiya təhlükəsizliyi, Beynəlxalq ticarət və logistika (tədris ingilis dilində) və İqtisadiyyat ixtisasları üzrə **2-ci**, Hüquqşünaslıq ixtisası üzrə **3-cü**, İnformasiya texnologiyaları (tədris ingilis dilində) ixtisası üzrə isə **4-cü** yeri tutmuşdur.

2022-ci ildə Akademiyada əlavə təhsilin **təkrar ali təhsil istiqaməti** üzrə **Hüquqşünaslıq** və **Beynəlxalq ticarət və logistika** ixtisaslarına növbəti dəfə tələbə qəbulu həyata keçirilmişdir. 2022/2023-cü tədris ilində **25 tələbə (yalnız gömrük əməkdaşları)** Hüquqşünaslıq, **21 tələbə** (**onlardan 15-i gömrük orqanı əməkdaşı)** isə Beynəlxalq ticarət və logistika ixtisaslarına qəbul olmuşdur.

Litva Respublikasının **Mikolas Romeris Universiteti**, Türkiyənin **Altınbaş Universiteti** və Çin Xalq Respublikasının **Şanxay Gömrük Kolleci** ilə əməkdaşlıq çərçivəsində 2022-ci il ərzində Akademiyanın **18** tələbəsi həmin ali təhsil müəssisələrində bir semestrlik təhsil almaq imkanı əldə etmişdir. 2022/2023-cü tədris ilinin payız semestrində isə Akademiya tərəfindən Şanxay Gömrük Kollecinin **11** tələbəsi üçün distant formada bir semestrlik tədris təşkil edilmişdir.



2023/2024-cü tədris ilində **bakalavriat səviyyəsinə** İqtisadiyyat, Hüquqşünaslıq, Beynəlxalq ticarət və logistika (tədris Azərbaycan və ingilis dillərində), İnformasiya təhlükəsizliyi və İnformasiya texnologiyaları (tədris ingilis dilində) ixtisaslarına **140** abituriyentin, **magistratura səviyyəsinə** isə Dünya iqtisadiyyatı ixtisasının Gömrük işi və Hüquqşünaslıq ixtisasının Beynəlxalq iqtisadi hüquq ixtisaslaşmalarına **10** bakalavrın qəbul edilməsi üçün Nazirlər Kabinetinə sifariş təqdim edilmişdir.

2022-ci il ərzində Dövlət Gömrük Komitəsinin Akademiyasında gömrük işi sahəsində elmi tədqiqatların aparılması, yerli və beynəlxalq səviyyədə elmi tədbirlərin (konfranslar, seminarlar) keçirilməsi, elmi-metodiki işin təşkili və təkmilləşdirilməsi, elmi ədəbiyyat və nəşrlərin hazırlanması, o cümlədən Akademiyada təhsilin bakalavr pilləsində buraxılış işlərinin və magistratura pilləsində magistr dissertasiya işlərinin gömrük xidmətinin müxtəlif istiqamətlərində müasir tələblərə uyğun hazırlanması, elmi nəticələrin əldə olunması və bu sahədə müvafiq təkliflərin hazırlanması sahəsində işlər görülmüşdür.

2022-ci ildə Akademiya Türkiyənin **Ege Universiteti** ilə birlikdə **2 beynəlxalq konfransın**, Bakı Mühəndislik Universiteti ilə isə **Ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş** “Gənc tədqiqatçıların VI beynəlxalq elmi konfransı”nın təşkilatçılarından biri olmuşdur.

2022-ci ildə Akademiyanın beynəlxalq əməkdaşlığının gücləndirilməsi, yeni əlaqələrin qurulması, daha öncə imzalanmış memorandumların icrası, beynəlxalq layihələrdə iştirak və s. istiqamətlərdə ciddi addımlar atılmışdır.

İl ərzində **Yaponiya**nın Kanazava Universiteti, DGKA-nın Erasmus+ WORK4CE layihəsi çərivəsində əməkdaşlıq etdiyi **Ukrayna**nın Kiyev Milli İnşaat və Memarlıq Universiteti, Qərbi Ukrayna Milli Universiteti və Zaporojye Milli Politexnik Universiteti arasında əməkdaşlığa dair **anlaşma memorandumları** (MoU) imzalanmışdır.

**Litva**nın Mikolas Romeris Universiteti, **Çin Xalq Respublikası**nın Baş Gömrük Administrasiyasının təlim qurumu və ÜGT-nin Asiya-Sakit Okean ölkələri üzrə Regional Təlim Mərkəzi olan Şanxay Gömrük Kolleci, **Türkiyə**nin Altınbaş Universiteti ilə xüsusilə tələbə mübadilələri və mübadilə proqramları əməkdaşlığı inkişaf etdirilmiş, yeni proqramlar həyata keçirilmişdir. Akademiyanın tələbələri mübadilə proqramı çərçivəsində yuxarıda qeyd edilən beynəlxalq nüfuzlu təhsil qurumlarında 2021/2022-ci tədris ilinin yaz semestrində və 2022/2023-cü tədris ilinin payız semestrində 1 semestr müddətində təhsil almışdır.

DGKA özünün ilk beynəlxalq virtual təhsil və mübadilə proqramını yaratmışdır. İcrasına 2022/2023-cü tədris ilinin payız semestrində başlanılan proqram çərçivəsində **Çin Xalq Respublikası**nın **Şanxay Gömrük Kolleci**ndə gömrük inzibatçılığı sahəsində bakalavriat səviyyəsində təhsil alan 11 tələbə üçün beynəlxalq virtual tədris proqramı təşkil edilmişdir.

Akademiyanın koordinatoru olduğu “Azərbaycanda Gömrük sahəsində İKT İmkanlarının Genişləndirilməsi” 3 illik (2022-2024) təlim proqramı layihəsi çərçivəsində Azərbaycan gömrük xidmətinin 20 nəfər əməkdaşı **KOICA** və KUMTREE şirkətinin 2022-ci ilin 31 may – 09 iyun tarixlərində təşkil etdiyi, Koreya Hökuməti tərəfindən maliyyələşdirilən virtual təlim proqramında iştirak etmişdir.

Akademiya tərəfindən **Qırğızıstan Maliyyə Nazirliyi yanında Dövlət Gömrük Xidmətinin əməkdaşları** üçün “Hüquq-mühafizə fəaliyyəti”, “Əməliyyat-axtarış tədbirlərinin qanunvericilik əsaslarının bəzi aktual məsələləri”, “Gömrük nəzarətinin səmərəli həyata

keçirilməsi üsulları", "Azərbaycan Respublikasının gömrük sərhəd buraxılış məntəqələrində həyata keçirilən prosedurlar və əməliyyatlar" kimi mövzularda onlayn təlimlər təşkil edilmişdir.

Akademiya **Erasmus + ECAR** ("Azərbaycanda Rektorlar Konfransının yaradılması") və **Erasmus+ WORK4CE** layihələri üzrə fəaliyyətlərini 2022-ci ildə də icra etmişdir. 2022-ci ildə **Avropa Komissiyası** tərəfindən dəstəklənən "Azərbaycanda İnstitusional Repozitorlar Şəbəkəsinin Yaradılması" (DIRNA, tədqiqat potensialının inkişafı üçün) Erasmus+ **yeni beynəlxalq layihə konsorsiumuna** tərəfdaş seçilmişdir.

**CEPOL** və **EUROPOL** tərəfindən Şərq Tərəfdaşlığı ölkələrində icra olunan (2020-2024) Transmilli Mütəşəkkil Cinayətkarlığa qarşı Təlim və Əməliyyat Tərəfdaşlığı (**TOPCOP)** layihəsində məsul qurum funksiyası uğurla icra edilmişdir.

### 15.4. Tibbi xidmət

Hesabat ilində tibbi xidmət sahəsində sanitar karantin xidməti tərəfindən yüksək keçid qabiliyyətinə malik gömrük sərhəd buraxılış məntəqələrində ("Mazımqara", "Qırmızı Körpü", "Samur", "Biləsuvar", "Astara") müvəqqəti tibbi izolyatorlar təşkil edilmişdir. Bu tibbi izolyatorların işlək olmasına mütəmadi nəzarət olunur.

Xüsusi təhlükəli infeksiya epidemiyası ilə mübarizə aparıldığı zaman operativ hərəkət planının gerçəkləşdirilməsi, habelə fövqəladə hal yarandıqda bir neçə saat ərzində maddi-texniki dəstəyin yerlərdə təmin olunması, şəxsi heyətin qoruyucu vasitələrlə təmin edilməsi və gömrük sərhəd buraxılış məntəqəsinin ərazisi üzrə xüsusi təhlükəli infeksiyalara qarşı əks-epidemik tədbirlərin həyata keçirilməsi məqsədilə 4 gömrük ərazisi üzrə (Mərkəzi, Cənub, Şimal və Qərb) ehtiyat anbarları yaradılmışdır. Bu anbarların ərazilər üzrə baş gömrük idarələrinin nəzdində təşkil edilməsi, operativlik baxımından əlçatan olması zəruri və əlverişlidir. Ehtiyat anbarlarında saxlanılacaq ləvazimatlardan ancaq fövqəladə hallar zamanı istifadə olunması nəzərdə tutulmuşdur.

Hesabat dövründə Mərkəzi Hospitalda müayinə və müalicə işlərinin hər zaman ciddi nəzarət altında saxlanılması hospital rəhbərliyinin başlıca vəzifəsi olmuşdur. Hospitalın bütün şöbə və bölmələrinin ahəngdar işləməsinə, nizam-intizamın hər hansı bir şəkildə pozulmasına yol verilməməsinə, qarşıya çıxan problemlərin ən qısa zamanda aradan qaldırılması ilə bağlı işlər görülmüşdür.

7 aprel 2022-ci il tarixdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin təşkilatçılığı ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin Ahıl şəxslər üçün sosial xidmət müəssisəsində 7 aprel - Ümumdünya Sağlamlıq Gününə həsr edilmiş tibbi xeyriyyə aksiyası keçirilmişdir. Aksiyada müəssisənin 120-yə yaxın sakini Mərkəzi Hospitalın aksiyaya cəlb edilmiş yüksək ixtisaslı həkimləri tərəfindən tibbi müayinələrdən keçirilmişlər.

31 may 2022-ci il tarixdə Mərkəzi Hospital 1 iyun Uşaqların Beynəlxalq Müdafiəsi Gününə həsr edilmiş tibbi aksiya keçirmişdir. Tibbi aksiya zamanı 2 №-li ümumi orta internat məktəbində 100-ə yaxın uşaqda Mərkəzi Hospitalın həkimləri tərəfindən kardioloji, oftalmoloji, travmatoloji, terapevtik və nervoloji müayinələr aparılmış, həkim məsləhətləri verilmiş və onların hər birinə kitab hədiyyə edilmişdir.

14 sentyabr 2022-ci il tarixlərində Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsi, TƏBİB və Lənkəran Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə Lənkəran Rayon Mərkəzi Xəstəxanasında (RMX) Lənkəran rayonundan olan şəhid ailələri və qazilər üçün ödənişsiz tibbi-

sosial aksiya keçirilmişdir. Tibbi aksiyada Mərkəzi Hospitalın həkimləri tərəfindən şəhid ailələri və qazilərə tibbi xidmət göstərilmişdir.

19 may 2022-ci il tarixdə Respublika İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi ilə Mərkəzi Hospitalı arasında icbari tibbi sığorta çərçivəsində tibbi xidmətlərin göstərilməsi haqqında müqavilə imzalanmışdır. Bu müqavilə vətəndaşlarımızın bütün təbəqələrinə hospitalda təqdim olunan geniş çeşidli tibbi xidmətlərdən yararlanmaq imkanı vermişdir.

## 16. İctimaiyyətlə əlaqələr

Hesabat dövründə Azərbaycan Respublikasının gömrük siyasətinin formalaşması və bu siyasətin həyata keçirilməsi istiqamətində əhalinin məlumatlandırılması, qanunvericiliklə müəyyən edilmiş ictimaiyyətə açıq olan informasiyanın DGK-nın rəsmi internet və sosial şəbəkələrdəki səhifələrində yerləşdirilməsi ümumilikdə informasiyaların daimi olaraq yenilənməsi təmin edilmişdir.

18 yanvar tarixdə Dövlət Gömrük Komitəsi və İcbari Sığorta Bürosu arasında "Yaşıl Kart" müqavilələri ilə bağlı inteqrasiyanın tamamlanması münasibətilə təqdimat və mətbuat konfransı keçirilmişdir. Tədbir çərçivəsində "Yaşıl Kart" sistemi ilə bağlı xüsusi təqdimat nümayiş etdirilmiş və sonda jurnalistlərin sualları cavablandırılmışdır.

24 yanvar tarixdə media nümayəndələri üçün "Gömrük sistemində islahatlar: nəticələr, perspektivlər" mövzusunda təlim keçirilmişdir. Dövlət Gömrük Komitəsi və Medianın İnkişaf Agentliyinin birgə təşkilatçılığı ilə keçirilən təlimdə 40-a yaxın media qurumunun nümayəndəsi iştirak edib. Təlimin məqsədi gömrük sistemində tətbiq edilən yeniliklər, layihələr və dəyişikliklərlə bağlı jurnalistlər məlumatlandırılmışdır. Jurnalistlərin Dövlət Gömrük Komitəsinin Cənub Ərazi Baş Gömrük İdarəsinin "Astara" gömrük postuna səfəri təşkil olunmuşdur. Səfər zamanı jurnalistlər gömrük sistemində tətbiq edilən yenilikləri əyani şəkildə müşahidə etmək imkanı əldə etmişlər.

7 oktyabr tarixdə Dövlət Gömrük Komitəsi ölkə ərazisinə idxal edilən avtonəqliyyat vasitələrinin rəsmiləşdirilməsi prosesini asanlaşdıracaq yeni elektron xidmət istifadəyə vermişdir. İdxal ediləcək avtonəqliyyat vasitəsinin AVRO-4 ekoloji normalarına uyğunluğu barədə sertifikatın elektron qaydada əldə edilməsinə dair xüsusi videoçarx və videotəlimat hazırlanaraq Komitənin rəsmi internet səhifəsində, Komitənin sosial şəbəkələrdəki rəsmi səhifələrində yerləşdirilmiş, elektron və çap media vasitəsilə ictimaiyyətin diqqətinə çatdırılmışdır. Televiziya kanallarında gömrük orqanının məsul əməkdaşı çıxış edərək bu barədə ətraflı məlumat vermişdir.

10 oktyabr tarixdə Dövlət Gömrük Komitəsi tərəfindən tətbiq edilən yeniliklər nəticəsində poçt göndərişləri vasitəsilə xaricdən gətirilərkən gömrük nəzarəti və ödənişləri tələb olunan bağlamaların rəsmiləşdirilməsi prosesi sadələşdirilmişdir. Bununla bağlı, xüsusi videoçarx hazırlanaraq Komitənin rəsmi internet səhifəsində, Komitənin sosial şəbəkələrdəki rəsmi səhifələrində yerləşdirilmiş, elektron və çap media vasitəsilə ictimaiyyətin diqqətinə çatdırılmış, eləcə də televiziya kanallarında mövzunun daha geniş kütləyə çatdırılması üçün süjetlər yayımlanmışdır.

19 noyabr tarixdə gömrük əməkdaşları üçün “Hüquqpozma faktlarının aşkar edilməsi zamanı foto və videoçəkilişlərin aparılması qaydaları” mövzusunda təlim keçirilmişdir. Təlimdə media və ictimaiyyəti məlumatlandırmaq üçün nəzərdə tutulan hüquqpozma faktları ilə bağlı foto

və videoçəkilişlərin aparılması qaydalarına dair təqdimat nümayiş etdirilmiş, çəkiliş avadanlıqlarından istifadə qaydaları, məkan seçimi və digər mövzularda məlumat verilmiş, praktiki məşğələlər keçirilmiş, iştirakçıları maraqlandıran suallar cavablandırılmışdır.

14 dekabr tarixdə Dövlət Gömrük Komitəsinin yeni "Məcburi Qərarlar" layihəsi ilə bağlı xüsusi videoçarx və videotəlimat Komitənin rəsmi internet səhifəsində, Komitənin sosial şəbəkələrdəki rəsmi səhifələrində yerləşdirilmiş, elektron və çap media vasitəsilə ictimaiyyətin diqqətinə çatdırılmışdır. Komitə rəsmisi televiziya kanallarında çıxış edərək ictimaiyyəti bu mövzuda maarifləndirilmişdir.

Komitənin rəsmi internet və sosial şəbəkələrdəki səhifələrində müntəzəm olaraq gömrük xidməti fəaliyyəti ilə bağlı olan və gömrük əməkdaşlarının professional hazırlığına kömək edən materiallar və yazılar verilmişdir. Yerli gömrük orqanlarının müsbət, təqdirəlayiq iş təcrübəsi təbliğ edilmiş, xarici ticarət iştirakçıları üçün keçirilən görüşlərin ölkə ictimaiyyətinə çatdırılması yönümündə müvafiq işlər görülmüş, ölkəmizdə yaşayan xarici ölkə vətəndaşlarının, iş adamlarının, xarici nümayəndəliklərin maraqlarını nəzərə alaraq Dövlət Gömrük Komitəsinin rəsmi internet səhifəsində, "Twitter" sosial şəbəkəsində aidiyyəti materialların ingilis dilində dərc edilməsi təmin edilmişdir. Müntəzəm olaraq gömrük orqanlarının fəaliyyəti ilə bağlı ictimaiyyəti maraqlandıran, kütləvi informasiya vasitələrində qaldırılan müxtəlif məsələlər Dövlət Gömrük Komitəsinin müvafiq baş idarə, idarə və şöbələri vasitəsilə araşdırılmış, nəticələri barədə mətbuata açıqlama verilmiş və Dövlət Gömrük Komitəsinin sosial şəbəkələrdəki rəsmi səhifələri vasitəsilə vətəndaşlara çatdırılmışdır.

Media qurumları tərəfindən daxil olan 1460 sorğunun hamısı cavablandırılmışdır. İl ərzində saytlarda 68012 məlumat yayımlanmış, qəzetlər üzrə il ərzində 1313 material dərc edilmiş, televiziya kanallarında isə il ərzində 721 süjet yayımlanmışdır. Dövlət Gömrük Komitəsinin saytında olan materialların rəsmi "facebook", "instagram", "twitter", "linkedin" və "telegram" səhifələrində, eləcə də videomaterialların "youtube" kanalında yerləşdirilməsi, verilən sualların dərhal cavablandırılması təmin edilmişdir.

İl ərzində sosial şəbəkələrdəki rəsmi səhifələrində "facebook"da 1253, "youtube"da 306, "twitter"də 1594, "linkedin"də 679, "instagram"da 915 ədəd, "telegram" da 959 məlumatın yayımlanması təmin edilmişdir. Dövlət Gömrük Komitəsinin sosial şəbəkələrdəki rəsmi səhifələrində il ərzində vətəndaşların 5462 sualı cavablandırılmışdır. Hesabat dövründə 208-dən çox videoçarx və 8 Noyabr - Zəfər Gününə həsr olunmuş Vətən müharibəsi iştirakçılarına aid 6 filmin hazırlanması təmin edilmişdir.

Hesabat dövründə gömrük işinin təşkili sahəsi üzrə ictimaiyyəti və sahibkarları maraqlandıran prioritet məsələlərlə bağlı 34 ədəd "Sual-cavab" və 34 ədəd "Həftəlik icmal" videoçarx şəklində hazırlanaraq Dövlət Gömrük Komitəsinin sosial şəbəkələrdəki rəsmi səhifələrində yerləşdirilmiş, 214 videoçarx və film hazırlanmış ki, onlardan 66-sı Vətən müharibəsində iştirak edən gömrük orqanı əməkdaşlarına və qazilərə həsr olunmuşdur.

### 16.1. Çağrı mərkəzi

Hesabat dövründə Çağrı mərkəzinə daxil olan müraciətlərin dinamikasında ötən ilin müvafiq dövrünə nisbətən artım müşahidə olunmuşdur. Cədvəldə qeyd olunan aylar ərzində **103 278** müraciət daxil olmuşdur. Ötən ilin müvafiq dövrü ilə (**102 915)** müqayisədə **363** artıq müraciət cavablandırılmışdır.

### Daxil olmuş və cavablandırılmış zənglərin sayı




**127 248**
Daxil olan zənglər

**106 376**
Cavablandırılan zənglər

Daxil olan müraciətlər operativ olaraq cavablandırılmış, gömrük xidmətinin nüfuzunun artırılması və cəmiyyətdə gömrük orqanlarına etimadın daha da möhkəmlənməsi, ədalət, qanunçuluq, qərəzsizlik, aşkarlıq prinsiplərinə uyğun formada şəxslərin məmnunluğunun təmin olunması istiqamətində bütün imkanlar səfərbər olunmuşdur.

### Daxil olmuş müraciətlərin və şikayətlərin sayı



### 16.2. “Könüllü gömrükçü” hərəkatı

Hesabat dövrü ərzində könüllü gömrükçülərin 6, 7 və 8-ci dəstəsinin formalaşdırılması məqsədilə 563 nəfərin müsahibədə iştirakı təmin edilmişdir. Müsahibə əsasında 504 nəfər gənc “Könüllü gömrükçü” dəstəsinə üzv seçilmişdir. 8-ci “Könüllü gömrükçü” dəstəsində hazırda 90 nəfər fəaliyyətini davam etdirməkdədir.

Hesabat dövründə 5, 6 və 7-ci “Könüllü gömrükçü” dəstəsinin məzun könüllülərinə könüllü fəaliyyətini başa vurmaları münasibəti ilə sertifikatların təqdim olunması mərasimi keçirilmişdir. Sözü gedən tədbirdə “Könüllü gömrükçü” dəstəsinin 485 nəfər üzvünə fəaliyyətlərinin yekunu ilə əlaqədar olaraq sertifikatlar təqdim edilmişdir.




Dövlət Gömrük Komitəsinin “Könüllü gömrükçü” dəstəsinin üzvlərinin ümumi olaraq **135** tədbirdə iştirakı təmin edilmişdir. Qeyd olunan tədbirlərin **32**-si Dövlət Gömrük Komitəsinin təşəbbüsü ilə, **103-**ü isə digər qurumların təşkilatçılığı ilə həyata keçirilmişdir.